# Qərbin Ermənistana dəstəyi bu ölkəni məhvə doğru sürükləyir




**"Bu gün səhər mənə məlumat verildi. Amerika Konqresinin 60 erməniपərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik". – Bu fikirləri Prezident İlham Əliyev oktyabrın 4-də Cəbrayıl sakinləri ilə görüşündə bildirib.**

(ardı 7-ci səhifədə)


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 221 (30625) 9 oktyabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# III MDB Oyunları Azərbaycanda keçiriləcək



Səhifə ⇨ 2

## Xarici sərmayəçilərə Qarabağ güzəştləri



Körfəz ölkələrinin şirkətləri bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərməyə üstünlük verir, bu ərazilərdə genişmiqyaslı layihələr gerçəkləşdirirlər. İqtisadiyyat nazirinin müavini Anar Axundovun sözlərinə görə, işğaldan azad edilən ərazilərin bərpasına özəl sərmayələrin cəlb edilməsi prioritet olduğu üçün bu coğrafiyada investorlar üçün əlverişli şərait yaradılıb.

(ardı 9-cu səhifədə)

## Rusiya–NATO qarşıdurması kəskinləşir




Rusiya–Qərb qarşıdurması günbəgün gərginləşməkdədir. NATO bloku artıq Rusiyaya qarşı hərbi hərəkətlərə keçmək niyyətini gizlətmir, Rusiya isə əlində olan bütün mümkün vasitələrlə, o cümlədən, nüvə silahı ilə özünün təhlükəsizliyini qorumaq əzmində olduğunu bəyan edir. Bu qarşılıqlı ittihamların nə vaxt və necə başa çatacağını təsəvvür etmək çətindir. Hər iki tərəf daşı ətəyindən tökmək istəmir.

(ardı 11-ci səhifədə)

## Vətən müharibəsinin xronikası: 9 oktyabr



**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

(ardı 5-ci səhifədə)



## Naşirlər getdilər, kitablar isə oxucularla qaldı

**Oktyabrın 2-dən 8-dək Azərbaycan paytaxtında təşkil olunan 10-cu Beynəlxalq Kitab Sərgisinə dünən yekun vurulub. Səmərəli keçən bir həftə ərzində dünyaşöhrətli yazarlar, yerli ədəbiyyat adamları və sərginin digər fəxri qonaqları ilə maraqlı və yaddaqalan görüşlər keçirilib.**

(ardı 10-cu səhifədə)

## "Şahdəniz" yatağı ölkəmizə 364,5 milyon dollar gəlir verib

**Azərbaycan Respublikası Dövlət Neft Fondu cari ilin əvvəlindən oktyabrın 1-dək "Şahdəniz" yatağından (qaz və kondensat) 364,465 milyon dollar gəlir əldə edib.**

(ardı 9-cu səhifədə)



# İRƏVANIN HÜQUQİ AVANTÜRİZMİ

*Paşinyan iqtidarı gözdən necə pərdə asır?*

**Ermənistan Konstitusiya məhkəməsinin Müstəqillik bəyannaməsinin konstitusiyada yer almayan müddəalarının etibarsızlığına dair qərarı geniş müzakirə predmetinə çevrilməkdədir. Birmənalı olaraq demək mümkündür ki, ölkənin hakim düşərgəsindən başqa, bütün siyasi qüvvələri bu qərara qarşıdır. Bu fonda baş nazir və komandası isə susqundur.**

Erməni iqtidarı Konstitusiya məhkəməsinin qərarını Azərbaycanın Ermənistanın qanunvericilik sənədlərində qonşulara qarşı ərazi iddialarının aradan qaldırılmasına dair tələbinin yerinə yetirilməsi kontekstində əsaslandırmağa tələsmir.

*(ardı 4-cü səhifədə)*



## Bakı qlobal liderləri iqlim konfransına toplayacaq

Səhifə ⇨ 8



## Ermənistan Cənubi Koreyadan da tank almaq istəyir



Səhifə ⇨ 4

# Laçınım, Laçınım, Laçınım mənim...



Səhifə ⇨ 5

# Azərbaycan Respublikası Prezidentinin Rusiyaya səfəri

## Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə görüşü



**Oktyabrın 8-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.**

**Dövlətimizin başçısını salamlayan Prezident Vladimir Putin dedi:**

– Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar, həmkarlar!

Sizin hamınızı Moskvada salamlamağa çox şadıq. Mənim Bakıya səfərim zamanı razılaşdığımız kimi bu gün görüş keçiririk.

Biz indi Prezidentlə, necə deyərlər, üzbəüz danışırdıq, dünən axşam da qeyri-rəsmi təmasımız olub, münasibətlərimizin hazırkı statusu ilə bağlı məsələlərə bu və ya digər dərəcədə toxunduq.

Dərhal qeyd etmək istərdim ki, münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər zamanı bildirmişdik: əmtəə dövriyyəsi 4 dəfədən çox – 4,3 milyard dollardır. Bizim Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur. Energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var. Onların hamısı perspektivlidir, realdır, həm ikitərəfli, həm də çoxtərəfli layihələr aktualdır.

Çox şadıq ki, MDB ölkələri başçılarının görüşü platformasında bizim bu gün cari işlər barədə informasiya mübadiləsi aparmaq, ola bilər ki, irəliyə doğru bu hərəkətdə, – bu isə açıq-aşkardır, – hər hansı düzəlişlər etmək imkanımız var.

Sizi görməyimizə çox şadıq. Xoş gəlmisiniz!

**Prezident İlham Əliyev** dedi:

– Hörmətli Vladimir Vladimiroviç, bu gün görüşmək imkanına görə sağ olun, həmçinin dünənki nahar yeməyinə görə təşəkkür edirəm. Yeri gəlmişkən, fürsətdən istifadə edərək, Sizi keçmiş doğum gününüz münasibətilə təbrik etmək istərdim.

Sizin dövlət səfərinizdən sonra ikitərəfli münasibətlərimizin dinamikası kifayət qədər nəzərə çarpır. Avqust ayında Bakıda əldə olunmuş qərarların yerinə yetirilməsi çərçivəsində artıq müxtəlif strukturların nümayəndələri səviyyəsində, hökumət üzvləri arasında çoxlu təmaslar olub.

Siz qeyd etdiyiniz kimi, bu gün həmin məsələləri nəzərdən keçirmək üçün yaxşı imkan var, çünki gündəliyimiz kifayət qədər genişdir və həmin layihələr, xüsusən avqust ayında Bakıda nəzərdə tutduqlarımız, əlbəttə ki, bizim daimi diqqət və nəzarətimizi tələb edir. Beləliklə, bu gün gündəliyə nəzər salmaq və iki ölkə arasında əldə olunmuş həmin razılaşmaların yerinə yetirilməsi üzrə konkret addımları müəyyənləşdirmək üçün yaxşı fürsətdir.

Görüşə görə bir daha sağ olun.

**Prezident Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu, Sizi oktyabrın 23–24-də Kazanda BRICS xətti ilə BRICS plyus-autriç tədbirlərində gözləyirik. Əminəm ki, orada faydalı görüşlər keçiriləcək, bu təşkilatın iştirakçı ölkələrinin bütün liderləri ilə işləmək mümkün olacaq. Əlbəttə ki, biz BRICS-lə əməkdaşlıq etməyə çalışan çox sayda ölkəni dəvət edirik. İyirmi beş həmkarımız öz iştirakını təsdiq edib. Ona görə də belə platformalarda işləmək hər zaman rahatdır. Onu nəzərdə tuturam ki, bu tədbirin iştirakçılarını maraqlandıran məsələlərin bütöv dairəsi üzrə danışıqlar aparmaq mümkündür. Zənnimcə, bu, həm faydalı, həm də maraqlı olacaq. Sizi Kazanda gözləyirik.

**Prezident İlham Əliyev:** Vladimir Vladimiroviç, sağ olun! Azərbaycan elə Sergey Viktoroviçin də dediyi, öz iştirakını təsdiq etmiş həmin 25 ölkə arasındadır. Sizin dəvətinizi məmnuniyyətlə qəbul edirəm və yeni görüşümüzü səbirsizliklə gözləyirəm. Sağ olun!

## Moskvada MDB dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul

**Oktyabrın 8-də Moskvada MDB dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Prezident İlham Əliyevin “Rossiya-1” TV kanalına müsahibəsi




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Moskvada “Rossiya-1” televiziya kanalına müsahibə verib.**

Müsahibədə bildirilir:

**Müxbir:** Siz bu günlərdə Amerikanın Azərbaycana qarşı sanksiyaları ilə bağlı çox açıq danışdınız. Məlum olduğu kimi, indi Rusiya minlərlə sanksiyanın təzyiqi altında yaşayır. Sizcə, sanksiyalar siyasətinin prinsipcə hər hansı perspektivləri varmı?

**Prezident İlham Əliyev:** Onun, ümumiyyətlə, mövcud olmağa haqqı yoxdur, xüsusilə də bu sanksiyalar qeyri-qanuni olduqda və tamamilə əsassız və selektiv şəkildə tətbiq edildikdə. Ona görə də biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik.

Bizə sanksiyalar 1992-ci ildə, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu bir vaxtda ölkəmizin “Ermənistanı blokadada saxlaması” barədə qondarma ittihamla tətbiq edilmişdi. Bu sanksiyalar 2001-ci ildə, ABŞ-nin öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit daşımalı olduğu vaxt aradan qaldırılmışdı. Partiya mənsubiyyətindən asılı olmayaraq, Birləşmiş Ştatların Prezidenti ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyaları öz qərarı ilə ləğv edirdi. Bundan sonra bizə qarşı həmin sanksiyalar yenidən tətbiq olundu. Mən onları nankorluqda ittiham edəndə, hesab edirəm ki, bu, həmin kontekstdə istifadə olunacaq ən sərt söz deyil.

***AZƏRTAC***

## MDB Dövlət Başçıları Şurasının iclası

*Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib*



**Oktyabrın 8-də Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

İclasda iştirak edən dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.

Çıxış üçün sözü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verən Rusiya Prezidenti Vladimir Putin dedi: Buyurun, İlham Heydər oğlu, söz Sizindir.

Dövlətimizin başçısı iclasda çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli həmkarlar!

Vladimir Vladimiroviç, əvvəlcə Sizi keçmiş doğum gününüz münasibətilə bir daha təbrik etmək və Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Rusiyanın dost xalqına isə yeni uğurlar və nailiyyətlər arzulamaq istərdim. Rusiya Federasiyası Prezidentinin Azərbaycana bu yaxınlardakı dövlət səfəri Rusiya–Azərbaycan münasibətlərinin müttəfiqlik xarakterini bir daha təsdiq etdi. Əminəm ki, əldə olunmuş razılaşmaların həyata keçirilməsi gələcəkdə münasibətlərimizin ardıcıl inkişafı işinə xidmət edəcək.

Fürsətdən istifadə edərək, Emoməli Şərifoviç Rəhmona Tacikistan Respublikasının növbəti il MDB-də sədrliyində uğurlar arzulamaq və keçmiş doğum günü münasibətilə bir daha təbrik etmək istərdim.

MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb.

Növbəti il Azərbaycanda III MDB Oyunları keçiriləcək. Gəncə şəhəri idman paytaxtına çevriləcək. Yarışlar, həmçinin Azərbaycanın 10-dan çox şəhərində keçiriləcək.

Fürsətdən istifadə edərək, Belarusu II MDB Oyunlarını uğurla keçirməsi münasibətilə təbrik etmək istərdim. Belaruslu dostlarımızın və qardaşlarımızın təcrübəsi bu mühüm idman tədbirinə hazırlıqda və onun keçirilməsində bizim üçün çox faydalı olacaq.

Bir aydan sonra Bakı ən böyük beynəlxalq tədbirə – COP29 iqlim konfransına ev sahibliyi edəcək. Biz 200-ə yaxın ölkənin bu konfransın Bakıda keçirilməsi haqqında yekdil qərarını bütün dünya ictimaiyyətinin Azərbaycana hörmətinin əlaməti kimi qiymətləndiririk.

Hörmətli həmkarlar, bu gün MDB dövlət başçılarının İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciəti qəbul ediləcək. Azərbaycan ümumi qələbəmizə sanballı töhfə verib. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar həmin dövrdə Azərbaycanda istehsal olunub, göstərilən məhsulların o vaxtlar SSRİ-də ümumi istehsalının faizidir. Azərbaycanda 130 növdən çox silah, sursat və texnika, o cümlədən məşhur “Katyuşalar”, “Yak-3” qırıcıları istehsal edilirdi.

Bakıda 41 hərbi hospital fəaliyyət göstərirdi, 440 min yaralı müalicə alırdı. 1942-ci ilin martında, həmçinin Taqanroq adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüşçüləri and içdilər və Şimali Qafqazdan başlayan döyüş yolunu Berlində başa çatdırdılar. 416-cı Azərbaycan atıcı diviziyası 1945-ci il aprelin 21-də birincilər sırasında Berlinin girəcəyinə daxil oldu. Mayın 2-də diviziyanın döyüşçüləri polkovnik Rəşid Məcidovun komandanlığı altında Qələbə Bayrağını Brandenburq darvazası üzərinə sancdılar.

Bizim 9 May ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək.



Diqqətinizə görə təşəkkür edirəm.

**Vladimir Putin:** İlham Heydər oğlu, çox sağ olun!

*

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.

Rusiya Prezidenti Vladimir Putin MDB ölkələri arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı layihələrin həyata keçirildiyini, əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko iclasda çıxış etdi və 1941–1945-ci illər müharibəsində Qələbənin 80 illiyi ilə bağlı MDB xalqlarına və dünya ictimaiyyətinə birgə müraciəti oxudu.

Sonra Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko çıxış edərək MDB ölkələrinin parlamentlərarası əlaqələrindən, görüləcək işlərdən, nəzərdə tutulan layihələrdən danışdı.

Daha sonra sənədlər imzalandı.

Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatdı.

# Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 93-4-cü maddəsinə uyğun olaraq aşağıdakı şəxslər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Cəfərov İlqar Xanlar oğlu,
Vəliyev Sərvər Yaqub oğlu.

2 “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Baxışova Vüsalə Ələkbər qızı,
Həsənov Rəşad Məhəmməd oğlu,
Qurbanov Raqib Əliddin oğlu.

**3.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 8 oktyabr 2024-cü il**

# Z.X.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Zamiq Xudaverdi oğlu Əliyev vəzifəsi dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 8 oktyabr 2024-cü il**

# Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Əliyeva Leyla Rauf qızı,
İbrahimov Zamin Vəliyəddin oğlu,
Qəniyev Faiq Əsəd oğlu,
Mahmudova Təranə Nəriman qızı,
Məmmədov Ceyhun Başir oğlu,
Məmmədov Əli İrfan oğlu,
Nəbizadə Nigar Xeyrulla qızı.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 8 oktyabr 2024-cü il**

# Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Gəncə Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Cavadova Günay İsmayıl qızı,
Sevindik Əziz oğlu,
Məcidov Rüfət Azadəli oğlu,
Məmmədov Müşfiq Vaqif oğlu.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 8 oktyabr 2024-cü il**

# Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Axundov Toğrul Bəhruz oğlu,
Əzizova Vəfa Ehtiram qızı,
Hacıyev Vahid Məcid oğlu.

**2.** İsmayılov Azər İbrahim oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

**3.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 8 oktyabr 2024-cü il**

# Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şəki Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Sadiqov Zülfüqar Əhməd oğlu,
Tahirov Zamin Cəbrayıl oğlu.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 8 oktyabr 2024-cü il**

# Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 93-4-cü maddəsinə uyğun olaraq Əliyev Qasım Vəli oğlu Şirvan Apellyasiya Məhkəməsinin hakimi təyin edilsin.

**2.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Əsədli Mahir Abdulla oğlu,
Novruzova Aytən Nazim qızı.

**3.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq Mayılov Samir İlham oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

**4.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 8 oktyabr 2024-cü il**

# TDT səhiyyə nazirlərinin IV iclası Şuşada keçirildi



**Türk Dövlətləri Təşkilatının və Azərbaycanın Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə Şuşa şəhərində oktyabrın 8-də TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası keçirilib.**

TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev çıxışında Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə sektorunun gələcək inkişafı üçün tədbirin uğurlu və səmərəli olacağına əminliyini ifadə edib. Baş katib müzakirə ediləcək məsələlərin və qəbul olunacaq qərarların yeni aspektdə Təşkilatın gələcək işinə mühüm təkan verəcəyini vurğulayıb: “Səhiyyə sahəsində əməkdaşlığımızda mühüm nailiyyət kimi biz səhiyyə nazirlərinin “Türktransplant sisteminin yaradılmasına dair Niyyət Protokolu”nun imzalanması və “2025-ci il üçün səhiyyə sahəsində əməkdaşlıq üzrə TDT-nin İş qrupunun Fəaliyyət Planı”nın təsdiq edilməsi qərarını alqışlayırıq”.

Səhiyyə naziri Teymur Musayev TDT-nin səhiyyə nazirlərinin IV iclasının Şuşada keçirilməsinin tarixi və qürurverici hadisə olduğunu vurğulayıb. O, Türk dünyasının böyük oğlu və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur” sözlərini xatırladıb.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov vurğulayıb ki, ərazi bütövlüyümüz tam bərpa edildikdən sonra regionda genişmiqyaslı yenidənqurma və bərpa işləri həyata keçirilir.

Türkiyənin Səhiyyə naziri Kemal Memişoğlu, Özbəkistanın səhiyyə nazirinin birinci müavini Davron Sultanov, Qazaxıstanın səhiyyə vitse-naziri Yerbol Ospanov, Qırğızıstanın Səhiyyə naziri Alımkadır Beyşenaliev, Şimali Kipr Türk Respublikasının səhiyyə nazirinin müavini Düriye Deren Oygar və Macarıstanın nümayəndəsi Türk Dövlətləri Təşkilatı və Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən keçirilən tədbirin yüksək səviyyədə təşkil olunduğunu və ölkələr arasında əməkdaşlığın müasir müstəvidə yeni prizmadan inkişafına təkan verəcəyini vurğulayıblar.

Tədbir çərçivəsində “Türktransplantın təsis edilməsinə dair Niyyət Protokolu” imzalanıb.

# Qərbin humanitar təşkilatları Qərbi azərbaycanlıların taleyinə biganədir

**COP29 yaxınlaşdıqca, anti-Azərbaycan qüvvələrinin ölkəmizə qarşı təzyiqləri və hücumları daha da güclənməkdədir. Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında deyilir.**

Bildirilir ki, “Amnesty International” və “Human Rights Watch” təşkilatları yaydıqları bəyanatda Azərbaycanın COP29-a ev sahibliyindən sui-istifadə edərək, ölkəmizə qarşı böhtanlar və əsassız tələblər irəli sürürlər.

"Bu bəyanatların eyni gündə yayımlanması Azərbaycana qarşı son həftələrdə artan hücumların sözügedən hər iki təşkilata nəzarət edən vahid bir mərkəz tərəfindən idarə olunduğunu bir daha göstərir. Ermənistandan qovulmuş azərbaycanlıların hüquqlarının qorunması ilə bağlı ötən ilin avqust ayında icmamızın “Amnesty International” və “Human Rights Watch”a göndərdiyi müraciətin cavabsız qalması bu təşkilatların insan hüquqları prinsiplərindən nə qədər uzaq olduğunu göstərir.

Biz “Amnesty International” və “Human Rights Watch”un anti-Azərbaycan mövqeyini, insan hüquqlarına zidd davranışlarını və irqi ayrı-seçkilik siyasətlərini kəskin şəkildə qınayır və onları bu yanlış əməllərdən əl çəkməyə çağırırıq", – deyə bəyanatda deyilir.

*

QAİ-nin yaydığı digər bəyanatda bildirilir ki, ATƏT-in İnsan Ölçüsü Konfransı çərçivəsində Qərbi Azərbaycan İcması tərəfindən Varşavada qayıdış hüququ mövzusunda yan tədbir keçirilib.

Tədbirdə moderatorluğu şərhçi və jurnalist Dr. Harvey Dzodin edib. Qərbi Azərbaycan İcmasının sədr müavini Ramil Həsən çıxış edərək, Ermənistanın törətdiyi etnik təmizləmə, icmanın qayıdış hüququ sahəsində gördüyü işlərdən danışıb. Bosniya və Herseqovinadan olan məcburi köçkün Erna Yaşareviç köçkünlük ilə bağlı şəxsi hekayəsini bölüşərək, ədalətin təmin edilməsinin barışıq üçün zəruri şərt olduğunu qeyd edib.

Tədbir beynəlxalq ictimaiyyətin diqqətini Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların problemlərinə və onların qayıdış hüququnun təmin edilməsi məsələsinə yönəltmək üçün faydalı olub.

***XQ***

# 60 şuşalının da həsrəti bitdi



**Dünən 16 ailə olmaqla, 60 nəfər Şuşa sakini də öz yurduna qovuşub.**

Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq, yeni evlərində məskunlaşıblar.

Bununla da Şuşa şəhərində 220 ailənin, yəni 823 nəfərin daimi məskunlaşması təmin edilib.

***XQ***

# İrəvanın hüquqi avantürizmi

(əvvəli 1-ci səhifədə)



Ona görə ki, iqtidar bunu özünə sığışdırmır, hesab edir ki, açıq tekstlə real mahiyyətdən danışmaq müxaliflərdə hiddət və qəzəb doğuracaq. Ən əsası isə rəsmi İrəvan avantürist iddialardan uzaq durduğunu rəsmən açıqlamaq niyyətində deyil. Mövzu ilə bağlı hələlik ancaq Ermənistan parlamentinin spikeri Alen Simonyanın fikri var. Onun dediyi budur: Bakı İrəvan qarşısında yeni tələblər qoya bilər. Yəni, indidən vurğu ölkəmizi qaralamaq üzərinə qoyulur. Deməli, Simonyan Konstitusiya Məhkəməsinin qərarının mənasızlığını dərk edir. Elə Paşinyanın digər həmfikirləri də eyni düşüncədədirlər.

Görünür, erməni hakim komandası məsələni yalnız beynəlxalq müstəvi üçün nəzərdə tutur. Təxminən belə: Azərbaycanın tələbini yerinə yetirdik, indi ölkə sülhə gəlmək istəmir. Söhbət hansı sülhdən gedir, bu da məlumdur. Rəsmi İrəvan və onun xaricdəki havadarları yalnız erməni avantürizminin ayaqda qalacağı sülhü istəyirlər. Çalışırlar ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə düşən öhdəliyi yerinə yetirməsin. Söhbət Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd nəzarəti olmayan yolun təmin edilməsindən gedir. Buna qarşılıq “Dünyanın kəsişməsi” ideyası ortaya atılır ki, təşəbbüsün Ermənistanı qlobal beynəlxalq tranzitin açar nöqtəsinə çevirməsi nəzərdə tutulur.

Azərbaycanın proseslərin vurğuladığımız gedişatı ilə razılaşmayacağı bəllidir. Ölkəmiz ona görə razılaşmır ki, “Dünyanın kəsişməsi”nin reallaşması nəticəsində güclənəcək Ermənistan həm mühüm kommunikasiyaların işini pozmaq, təhdid yaratmaq şansı qazanacaq, həm də ölkənin yenidən ərazi iddiasına baş vurması ehtimalı böyükdür.

Azərbaycan gələcəyə kompleks şəklində baxır. Bu səbəbdən Ermənistanın üzərinə düşən öhdəliklərin yerinə yetirilməsinin vacibliyi ilə yanaşı, ölkənin dövlət sənədlərindəki ərazi iddialarının aradan qaldırılmasına dair şərt irəli sürür. Hazırkı reallıq onu deməyə əsas verir ki, rəsmi İrəvan hər iki məsələdən boyun qaçırır. Məlum olduğu kimi, Paşinyan iqtidarı Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı məsələsini qabardır, bu yolla üçtərəfli bəyanatdan imtina yolunu tutur. Bilavasitə, ikinci məsələyə gəldikdə isə Ermənistan Konstitusiya məhkəməsinin qərarı müxtəlif interpretasiyalar üçün tam açıqdır. Yəni, bu qərar hələ ölkənin qonşulara qarşı ərazi iddialarından daşınması anlamına gəlmir.

Qeyd edək ki, Ermənistan SSR Ali Soveti Müstəqillik Bəyannaməsini 1990-cı ilin avqustunda qəbul etmişdi. Sənəd gələcək dövlətin konturlarından ibarətdir. Bəyannamənin preambulasında, elə birinci abzasındaca Qarabağı Ermənistana birləşdirmək istəyindən danışılır. 11-ci bənddə isə 1915-ci ildə Osmanlı dövlətində yaşananlar “erməni soyqırımı” kimi təsvir olunur və qondarma soyqırımının beynəlxalq səviyyədə tanınmasına nail olmaq məramı açıqlanır. Sonradan, yəni 1995-ci ildə qəbul edilmiş Ermənistan konstitusiyası isə Müstəqillik bəyannaməsinə əsaslanıb. Bundan imtina bir məhkəmə qərarı ilə ola bilərmi? Aydındır ki, yox.

İkincisi, Azərbaycanın tələbi Ermənistanın bütün dövlət sənədlərindəki ərazi iddiasının aradan qaldırılması ilə bağlı idi. İndiki halda Müstəqillik bəyannaməsindən imtina yoxdur. Prinsipcə, Ermənistanın ondan imtinasının qeyri-mümkünlüyünün hüquqi aspektləri də mübahisələndirilə bilər. Çünki 1990-cı ildə müstəqil Ermənistan mövcud deyildi. Deməli, hazırkı erməni dövlətinin dövlətsizlik şəraitində qəbul edilmiş sənədə müdaxilə səlahiyyətinin uzaqlığından söz açılması mümkündür. Erməni qövmündən nə desən, çıxar...

Ermənistan Konstitusiya məhkəməsinin qərarı ilə bağlı çoxsaylı qeyri-müəyyənlikləri sənədə əks çıxan cinahların təmsilçiləri də vurğulayırlar. Əslində, onların məsələyə münasibətindəki ayrı-ayrı nüanslarda rəsmi İrəvanın gələcək üçün ehtimal edilən manipulyasiyalarının işartıları var. Tutaq ki, ölkə konstitusiyası Müstəqillik bəyannaməsinin özündə olmayan müddəalarını nəzərə almır. İndiyədək nəzərə aldığı yazılmışdı ki, Konstitusiya məhkəməsi indi bunun əksini sübut etməyə çalışır? Xeyr! Məhkəmə qərarı erməni əsas qanununun bəyannaməyə istinaddan tam imtinasıdırmı? Əlbəttə ki, yox! Belə bir məsələ hüquqi cəhətdən də yolverilməzdir. Çünki onun reallaşması referendumdan keçməlidir. Deməli, bu prizmadan da Konstitusiya məhkəməsinin qərarının hansısa əhəmiyyəti yoxdur. Qərar şərh mahiyyətlidirsə, əhəmiyyəti heç yoxdur.

Nə vaxtsa məhkəmənin tam fərqli şərhi də mümkündür. Nəzərə alaq ki, bunun üçün imkanlar saxlanılmaqdadır. Digər tərəfdən, erməni cəmiyyətinə həmişə təlqin edilib ki, Müstəqillik bəyannaməsi konstitusiyanın bir hissəsidir. Mövcud baxışda dəyişiklik varmı? Xeyr! Başqa bir yandan, bəyannamənin ayrı-ayrı müddəalarından imtina məntiqi yerinə düşmür. Çünki orada göstərilənlər, hətta ərazi iddialarının özü də normativ hüquqi akt kimi təsvir edilə bilməz. Elə isə sual oluna bilər: Azərbaycan nə üçün Ermənistan qarşısında belə bir tələb qoyub? Ölkəmiz ümumən təminat axtarışındadır və sülh üçün səmimiyyətin başlıca faktor olduğunu qəbul edir. İstəyir ki, Ermənistan otuz ilə yaxın müddətdə işğalçılıq siyasəti gerçəkləşdirən ölkə olaraq buna yol verməyəcəyinə dair həm siyasi, həm də mənəvi öhdəlik götürsün. Amma görürük ki, belə bir öhdəlik yoxdur və Ermənistan Konstitusiya məhkəməsinin qərarı gözdən pərdə asmaqdır.

Digər bir məqama diqqət yetirək. Yuxarıda da vurğuladıq ki, Ermənistanın Müstəqillik bəyannaməsində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsindən söz açılıb. Məlumdur ki, sonradan “Qarabağın müstəqilliyi” tezisi gündəmə gəldi. Ermənistan konstitusiyası “Qarabağın müstəqilliyi”nə dair hüquqi norma müəyyənləşdirmir. O zaman Konstitusiya məhkəməsi nədən imtina edib? Olmayan şeydənmi?

Əvvəldə bildirdik ki, erməni iqtidarı Konstitusiya məhkəməsinin qərarını şərh etməyə könülsüz yanaşır. Ancaq bunun zərurətə çevrilməsi proqnozlaşdırılır. Çünki məsələ erməni cəmiyyətində geniş müzakirə predmetinə çevrilməkdədir. Belə bir durumda Paşinyan və komandasının üzvləri nələrin üzərində dayana bilərlər? Məsələn, onların Konstitusiya məhkəməsinin qərarına əsasən, bəyannamənin Qarabağa aid bəndinin normativ deyil, simvolik xarakter daşıması ilə bağlı şərhlər vermələri mümkündür. Ən başlıcası isə erməni iqtidarının konstitusiyanın dəyişdirilməsinə ehtiyacın qalmadığına dair fikri tirajlaması proqnozlaşdırılır.

Yəni, söhbət prinsipcə əvvəlki formaya qayıdılmasından gedir. Məlumdur ki, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları 1988-ci ildə başlamışdı. Həmin vaxt Müstəqillik bəyannaməsi yox idi. Yəni, erməni avantürizmi üçün nəyinsə yazılması heç bir önəm daşımır. Bunu Azərbaycan cəmiyyəti də, dövləti də gözəl bilir. Torpaqlarımızın işğalı zamanı da hansısa sənəd əsas götürülməmişdi. Məqsəd sırf Qarabağı Ermənistana birləşdirməkdən ibarət idi. Lakin Azərbaycan buna qarşı çıxdı və havadarları İrəvana məsələnin beynəlxalq hüquq baxımından yolverilməzliyini anlatdılar. Nəticədə “Qarabağın müstəqilliyi” ideyası ortaya atıldı. Ermənistan danışıqlar prosesində separatçıları ayrıca tərəf kimi göstərməyə cəhd göstərdi. Ancaq onları dövlət kimi tanımadı. Görünür, buna bəyannamə imkan vermirdi.

Deməli, həmin sənədin konstitusiyada yer almayan müddəalarından imtina “Qarabağın müstəqilliyindən” imtina deyil. Üstəlik, baxırıq ki, rəsmi İrəvan və xaricdəki dəstəkçiləri Qarabağda “etnik təmizləmə”dən danışır, məsələni beynəlxalq platformalara daşıyır, həmçinin Bakı həbsxanalarındakı separatçı liderlərin azadlığa çıxmaları üçün kampaniyalar təşkil edirlər. Deməli, bölgənin Ermənistana birləşdirilməsi məntiqindən imtina olunur, “Qarabağda erməni hakimiyyəti” amili üzərində dayanılır. Aydındır ki, əgər bölgədə erməni dövləri qurulsa, sonradan onun Ermənistana birləşməsi su içimi kimi bir şey olacaq.

Sonda onu vurğulayaq ki, hər bir halda, Ermənistan avantürizmdən daşınmır. Azərbaycan prosesləri müşahidə edir. Ölkəmizdə yaxşı dərk edilir ki, İrəvanın gerçəkləşdirdikləri spekulyativ gedişlərdir. Problem Ermənistanın bu sayaq bəsit siyasi manevrlərə ümid bəsləməsindədir. Əvvəlki yazılarımızda da bildirdiyimiz kimi, Ermənistan odla oynayır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ermənistan Cənubi Koreyadan da tank almaq istəyir

**Son 35 ildə Cənubi Qafqazda sülh və sabitlik üçün başlıca təhdid olan Ermənistan bu siyasətini hazırda da davam etdirir. Bu ölkədə hakimiyyətlər dəyişsə də, siyasət dəyişmir. Maraqlıdır ki, 44 günlük İkinci Qarabağ müharibəsi və ötənilki lokal xarakterli antiterror tədbirləri də rəsmi İrəvana dərs olmayıb. Nikol Paşinyan iqtidarı müdafiə silahları almaq adı altında ölkəni cəbbəxanaya çevirir. Bütün vasitələrlə hücum silahları ilə təchiz olunan Hayastan əsas qanununda və digər hüquqi aktlarında Azərbaycana qarşı ərazi iddialarından əl çəkmir.**

Bu istiqamətdə yayılan son məlumat da diqqəti cəlb edir. Məlumata görə, Ermənistan indi də Koreya Respublikasının (Cənubi Koreya) istehsalı olan və dağlıq əraziyə uyğunlaşdırılmış K2 tanklarının alınması imkanını nəzərdən keçirir. Bunu “Army Recognition” portalı Cənubi Koreya mətbuatına istinadən xəbər verib. Məlumata görə, Ermənistanın müdafiə naziri Suren Papikyanın rəhbərlik etdiyi nümayəndə heyəti “Hyundai Rotem” tərəfindən hazırlanmış K2 “Qara panter” əsas döyüş tanklarının alınması imkanlarını araşdırmaq üçün 2024-cü ilin sentyabrında Cənubi Koreyaya səfər edib. Bundan əlavə, Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan da sentyabrın 6-da Cənubi Koreyaya işgüzar səfər edərək orada silah alışı məsələlərinə dair bir sıra görüşlər keçirib.



Qeyd edək ki, Papikyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Cənubi Koreyanın paytaxtı Seula səfər etməsi ilə bağlı ötən ay ölkənin müdafiə nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda səfərin işgüzar xarakter daşıdığı qeyd edilmişdi. O, səfər çərçivəsində sentyabrın 9-da “Hərbi sferada məsul süni intellekt” sammitinin açılış mərasiminə qatılmışdı. Tədbir Koreya Respublikası, Niderland, Böyük Britaniya, Sinqapur və Keniyanın müdafiə və xarici işlər nazirlikləri tərəfindən hərbi texnologiyaların daha yaxşı mənimsənilməsi və döyüş əməliyyatları zamanı süni intellektdən istifadəyə nəzarət üzrə beynəlxalq mexanizmlərin yaradılmasının təşəbbüskarı olmaq məqsədilə təşkil olunmuşdu.

Ermənistanın ciddi şəkildə silahlanması ölkəmizdə haqlı olaraq təhlükəsizlik qayğılarının yaranmasına səbəb olur. Artıq hamıya məlumdur ki, İrəvan Azərbaycana qarşı ərazi iddialarından hələ də əl çəkməyib. Rəsmi İrəvan bunu şifahi şəkildə bəyan etsə də, konstitusiyasından Müstəqillik bəyannaməsinə istinadın yer aldığı bəndi çıxarmayıb. Onlar ölkəmizin çoxsaylı iradlarına cavab olaraq, hələ bu yaxınlarda konstitusiya dəyişikliyi üzrə referendumun 2027-ci ildə keçiriləcəyini bəyan ediblər. Buna paralel olaraq, Ermənistan Fransadan, Hindistandan silah-sursat alır, Yunanıstan və Kipr Respublikası ilə hərbi və hərbi-texniki əməkdaşlığı genişləndirir. Avropa Sülh Fondu vasitəsilə Ermənistana silahlı qüvvələrini inkişaf etdirmək üçün ilkin olaraq 10 milyon avro vəsait ayrılıb. İndi isə bu ölkələrin siyahısına Cənubi Koreyanın da qoşulması ciddi mətləblərdən xəbər verir.

Məhz bu məqamları nəzərə alan Prezident İlham Əliyev sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirdi ki, hərbi gücümüzün, ordumuzun döyüş qabiliyyətinin artırılmasına paralel olaraq, biz yerli hərbi sənaye kompleksimizi də daha sürətlə inkişaf etdirməliyik. Cari ildə bu məqsədlə böyük vəsait ayrılıb və gələn il də ayrılacaq. Bizim bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşmə işləri aparılır. Yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur. Bir neçə xarici tərəfdaşla yeni istehsalat sahələrinin yaradılması artıq praktik müstəviyə keçib. Yəqin ki, növbəti bir-iki il ərzində bizim hərbi sənaye kompleksimiz həm çeşidlərin sayına, həm də ki, istehsal olunacaq məhsulların keyfiyyətinə görə daha böyük olacaq. Burada bir neçə məqsəd güdülür. İlk növbədə, yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir. İkincisi, biz xarici mənbələrdən daha az asılı olmalıyıq. Təbii ki, bu asılılığı tam aradan qaldırmaq mümkün olmayacaq. Bunu da biz bilməliyik. Amma maksimum dərəcədə özümüzü yerli istehsalla təmin etməliyik. Bu sahədə, xüsusilə müasir dövrdə tətbiq olunan texnoloji yeniliklər bizim ümumi intellektual potensialımızı gücləndirəcək. Çünki bu sahədə çalışan kadrlar, öz işlərini tamamilə yeni, texnoloji və metodoloji əsaslar üzərində qururlar və quracaqlar. Minlərlə yeni iş yeri yaradılacaq. Artıq bütün bunlar bizim təkcə planlarımız deyil, həyata keçirilən layihələrdir.

Şübhə yoxdur ki, cənab İlham Əliyevin növbəti illər üçün əsas vəzifələrimizdən biri kimi xarakterizə etdiyi bu sahənin inkişafı dövlətimizin xarici təhdidlər qarşısında daha güclü olmasını təmin edəcək. **Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov da bu fikirdədir.** Mövzu ilə bağlı XQ-yə açıqlama verən Ş.Ramaldanov bildirdi ki, Ermənistan hazırda silah aldığı ölkələrin sayını artırmağa çalışır. Onun sözlərinə görə, bu mənada indi Cənubi Koreyadan gələn xəbərlərin yaxın gələcəkdə Yaponiyadan gəlməsi istisna olunmur: “Ancaq bunların başında Ermənistanın yeni havadarları – ABŞ və Avropa İttifaqı dayanır. Hindistan istisna olmaqla, bu gün Ermənistanın silahlandırılmasında iştirak edən digər ölkələr Rusiyaya qarşı olan koalisiyanın üzvləridir. Bu isə Ermənistanın hazırkı siyasi mövqeyi ilə üst-üstə



düşür. Artıq Cənubi Koreyadan K2 tanklarının alınması ilə bağlı məlumatlar var. Bunu praktiki şəkildə həyata keçirməyin nə dərəcədə mümkün olub-olmayacağı məsələsi hələlik açıq qalır. Amma, havadarlarının dəstəyi nəticəsində Ermənistanın bu tankları əldə etməsi gözləniləndir”.

Ş.Ramaldanov qeyd etdi ki, bu gün Ermənistanın ayrı-ayrı sahələrinə, o cümlədən, humanitar, demokratiya və iqtisadiyyat sahələrinə yönəldilən maliyyə dəstəyi İrəvana öz büdcəsi hesabına silah və hərbi texnika almaq imkanı yaradır. Onun sözlərinə görə, Qərb ölkələri Ermənistana anti-Rusiya sanksiyalarından yan keçmək və müvafiq olaraq böyük gəlirlər əldə etmək üçün imkan yaradırlar. Nəticədə Ermənistanın Rusiya ilə ticarət dövriyyəsinin həcmi artaraq 2024-cü ilin ilk altı ayında 8,4 milyard dolları keçib. ABŞ və Fransadan İrəvana irimiqyaslı iqtisadi yardımlar edilir. Hazırda Ermənistan 6-7 ölkədən silah və hərbi texnika alır.

Hərbi ekspert bildirdi ki, K2 tankları ən müasir tələblərə cavab verir və qabaqcıl texnologiyaya malikdir. Bu tankın bəzi elementləri ABŞ və Avropada istehsal edilmiş müxtəlif tanklardan alınaraq təkmilləşdirilib. Cənubi Koreya onu özünün daxili bazarı üçün istehsal etməyə başlamışdır: “K2 tankları ilə bağlı ən böyük kontrakt Polşa ilə imzalanıb. Söhbət 180 tankın alınmasını nəzərdə tutan 3 milyard dollarlıq müqavilədən gedir. Ancaq Cənubi Koreyanın bu tankların istehsalını 2 ildən sonra dayandıra biləcəyi ilə bağlı məlumatlar da var. Çünki Seul daxili tələbatını ödədikdən sonra onun istehsalını dayandırmaq istəyir”.

Ş.Ramaldanovun sözlərinə görə, K2 tankları Avropa və ABŞ istehsalı olan tanklardan çəki etibarilə daha yüngül – 55 tondur. Avropa və ABŞ istehsalı olan tankların çəkisi isə 72 tondur: “Biz burada K2-nin çəki baxımından da nə qədər münasib olduğunu görürük. Digər tərəfdən, bu tankların mərmi doldurma prosesi avtomatlaşdırılmış şəkildə gedir. Hətta, bəzi məlumatlara görə, 10-15 mərmini bir dəqiqəyə atmaq imkanı var. K2-nin 120 millimetrlik topu ilə 8 kilometr uzaqlıqdakı hədəfi vurmaq imkanından bəhs edilir. Özünümüdafiə sistemi müasir tələblərə cavab verir. Hətta, alçaqdan uçan hədəflərə qarşı da K2-nin topundan istifadə oluna bilər. Tankın hərəkət sürəti qrunt ərazidə saatda 50-55, asfalt yolda isə 70 kilometrdir. Bu baxımdan düşünürəm ki, K2 tankları hazırda dünyada hərbi sənaye kompleksləri tərəfindən istehsal olunan ən qabaqcıl tanklardan biri kimi özünü təsdiq edə bilib”.

Müsahibimiz onu da qeyd etdi ki, hələlik Ermənistanın neçə ədəd K2 alacağına dair məlumat yoxdur. Ancaq İran ərazisi vasitəsilə daşınacağı ehtimal edilən bu tanklar Hayastanda peyda olarsa və bizim təhlükəsizliyimizə təhlükə yaradarsa, ordumuzun legitim hərbi hədəfinə çevriləcəklər: “Azərbaycan dövləti, ordusu Ermənistanın silahlandırılması məsələsini daim nəzarət altında saxlayır. Bununla bağlı lazım olan məlumatlar toplanılır. Azərbaycan diplomatiyası Ermənistanın silahlanmasının qarşısını almaq üçün aktiv fəaliyyətdədir. Ancaq bu gün ordumuzun arsenalında olan istər tanklar, istərsə də tank əleyhinə mübarizə vasitələri ən müasir tələblərə cavab verir. Düşünürəm ki, proses bu istiqamədə davam edəcək. Müharibə şəraitində olduğumuz ölkənin tank kimi ağır silahlarla silahlandırılması diqqətimizin daha da artırılmasına gətirib çıxarmalıdır. Ermənistanı revanş tipli addımlar atmaqdan çəkindirmək üçün qabaqlayıcı addımların atılmasını istisna etmirəm”.

**Ermənistanın silahlandırılması siyasətinin bölgə üçün nə vəd etməsinə dair sualımızı cavablandıran politoloq Ramiyə Məmmədova isə bildirdi ki,** hazırda Cənubi Qafqazda gedən proseslər bütün dünyanın diqqət mərkəzindədir.



Onun sözlərinə görə, bu da regionun mühüm geosiyasi əhəmiyyəti ilə bağlıdır: “Qərb ölkələri Ermənistanda öz mövcudluqlarını artırmaq istəyirlər. Onlar özlərini Ermənistanın himayədarı kimi aparırlar. ABŞ, Fransa və Avropa İttifaqı əsas aktorlar kimi Rusiyaya qarşı çıxan dövlətləri öz tərəflərinə çəkirlər. Vaxtilə Gürcüstan bölgədə belə bir rol oynayırdı. İndi isə Gürcüstan fərqli yol tutub. Hazırda Ermənistan Qərbə inteqrasiya etməyə çalışır. Proses zamanı Azərbaycanın düşmən obrazı yaradılır, Qərb mediasında ölkəmizin, guya, Ermənistanın cənubuna hücum edəcəyinə dair yalan məlumatlar yayılır. Ermənistan sürətlə silahlandırılır”.

R.Məmmədova dedi ki, erməni diaspor və lobbisinin çox güclü olduğu ABŞ, Fransa kimi ölkələr bu prosesdə xüsusi fəallıqları ilə seçilirlər: “Həmin dövlətlər Ermənistan vasitəsilə Cənubi Qafqazda böyük rol oynaya biləcəklərini düşünürlər. Bu məqsədlə Ermənistana ciddi maliyyə resursları ayrılır. Hindistan BRICS təşkilatı daxilində Rusiya ilə çox yaxşı münasibətlərdə olsa da, Ermənistanı silahlandırır. Təbii ki, Nyu-Dehli bu məsələyə daha çox iqtisadi prizmadan yanaşır. Hindistana silah satmaq üçün bazar lazımdır. Fransadan fərqli olaraq, Hindistan silah satışı bazarında yeni olduğu üçün, belə deyək, müştəri axtarır. Cənubi Koreya və digər ölkələr də silah bazarında öz yerlərini tutmaq istəyirlər. Ermənistan da bundan yararlanmağa çalışır”.

Politoloq onu da qeyd etdi ki, silah alması üçün Ermənistana həm yol, həm də maddi dəstək göstərən dövlətlər var. Bununla da Hayastan rəhbərliyi öz ordusunu daha da gücləndirir. Nəticədə İrəvanda yeni “arzular” baş qaldırır. Onlar düşünürlər ki, ABŞ, Fransa, digər Avropa dövlətləri, İran və sair ölkələr yeni mümkün müharibədə İrəvana dəstək verəcəklər. Ancaq Azərbaycanın həm maddi və hərbi resursları, həm də dünyada dostlarının sayı daha çoxdur. Əgər Ermənistan verilən yardımlarla silah-sursat alırsa, Azərbaycan öz gücü hesabına bunu edir.

***Səxavət HƏMİD***
***XQ***

# Laçınım, Laçınım, Laçınım mənim...

## *“MDB-nin mədəniyyət paytaxtı” estafetini Səmərqənddən alan dağlar gözəli*



**Xatırlayıram, 50 yaşım tamam olanda mən laçınlılarla Qarabağda, Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində görüşmüşdüm və onlara demişdim ki, – yeni köçkün şəhərciyi açılırdı – dövlət sizi daha yaxşı şəraitlə təmin edir, ancaq torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq və belə də oldu. Əlli yaşımı Ağcabədidə laçınlılarla qeyd etmişəm, 60 yaşımı Şuşada qeyd etmişəm, Cıdır düzündə, bu gün də Laçın Şəhəri Günündə sizinlə birlikdə bu bayram tədbirlərində iştirak edirəm. Bu, böyük xoşbəxtlikdir, mənim üçün, sizin üçün, hər birimiz üçün.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Laçın şəhəri, 26 avqust 2023-cü il**

Kütləvi informasiya vasitələrinin son günlər Moskvadan verdiyi xəbərlər əsnasında “Azərbaycanın Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı statusunu alacaq” – cümləsini eşidəndə beynimdən keçən ilk fikirlər belə oldu: “Allah səni qorusun, Azərbaycan Ordusu, eşq olsun sənə, Ali Baş Komandanımız!” Dərhal da cənab Prezidentin ötən ilin avqustunda Laçında söylədiyi fikirləri öz-özümə təkrar elədim ki, bu məzmunda qəzet materialı hazırlamalı olsam, istifadə edim.

Xatırladaq ki, Moskvada Laçının MDB ölkələrinin mədəniyyət paytaxtı elan ediləcəyi barədə məlumatı hansısa informasiya agentliyi və ya qəzet əməkdaşı deyil, birbaşa Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov keçirdiyi brifinqdə səsləndirmişdi. O da əlavə edilmişdi ki, 2024-cü ildə Özbəkistanın Səmərqənd şəhəri MDB-nin mədəniyyət paytaxtıdır.

Əvvəlcə onu xatırladım ki, Ali Baş Komandanımızın həmin gün Həkəri çayının sahilindəki meydanda keçirilən “Laçın Şəhər Günü” adlı tədbirdə əyləşməsini lentə köçürən fotomüxbirlərin bəxti gətirmişdi. Çünki dövlət başçımız o tədbirdə elə xoşbəxt idi, elə əmin-arxayın əyləşmişdi ki, istənilən azərbaycanlı onu görəndə deyərdi: Daha bizə zaval yoxdur!

Cənab Prezident orada xatırlatdı ki, Laçının işğala məruz qalması böyük faciə idi, həm laçınlılar üçün, həm bütün Azərbaycan xalqı üçün. Sonra əlavə etdi ki, əslində, hər bir kəndin, şəhərin işğala məruz qalması böyük faciə idi. Amma Laçının işğalı strateji nöqteyi-nəzərdən böyük bir sınaq idi, böyük bir fəlakət idi: “Çünki beləliklə, Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılırdı və bizim sonrakı itkilərimizin başlanğıcı məhz Şuşa və Laçının itirilməsi idi. May ayı müstəqil Azərbaycanın tarixində bu iki faciəvi günlə əlaqəli idi. Yəni, bizim müstəqil həyatımızda may ayı faciəli bir ay idi – çünki 8 mayda Şuşa, 18 mayda Laçın işğal edilmişdi. İşğal bizi içəridən sarsıdırdı və bu işğal digər torpaqlarımızın işğal altına düşməsinin başlanğıcı idi. Çünki birinci Şuşa, ondan sonra Laçın işğal olunmuşdur”.

Bəli, barbar qonşularımızın onillər boyu işğal altında saxladıqları Laçın, Şuşa, Füzuli və digər şəhərlərimiz artıq beynəlxalq aləmin diqqət mərkəzindədir. İşğal dövründə buralara “erməni əsgərlərinin hünərini” görmək istəyən bəzi fransız turistləri və qonşu ölkələrdən hansınınsa narkotacirləri gəlirdilərsə, indi Şuşa, Laçın, Füzuli, Ağdam, demək olar ki, hər ay dünyanın sayılıb seçilən ziyalılarını, siyasətçi, diplomat, səyyah, mədəniyyət xadimi və KİV təmsilçilərini qəbul edir.

Xatırladaq ki, Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrdən Belarus, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın təmsilçiləri bizim işğaldan azad edilmiş ərazilərimizə dövlət başçısı səviyyəsində səfər ediblər. Rusiya təmsilçiləri isə həmin ərazilərdə keçirilən beynəlxalq tədbirlərin hamısında iştirak edirlər. Yəni vəhşi qonşularımızın bu şəhər və kəndlərimizdə törətdiyi barbarlıqların miqyası hamıya məlumdur.

O da faktdır ki, bu dağıntı və xarabalıqlar MDB miqyasında hamıdan çox Ermənistana məlumdur. Yeri gəlmişkən, Ermənistan rəhbərliyi MDB dövlət başçılarının Moskvada keçirilən qeyri-rəsmi toplantısında yenə cığallıq edərək qurumun yaymaq istədiyi iki sənədi imzalamadı. Onsuz da onların hansısa sənədi imzalayıb-imzalamamasının heç bir əhəmiyyəti yoxdur. Çünki Nikol Paşinyan hansısa sənədə imza atıb İrəvana qayıdınca okeanın o biri tayından zəng gəlir ki, Nikol, həmin imzadan imtina et. O da imtina edir.

Laçın haqqında danışanda mən daha iki laçınlını xatırlayıram. Biri ötən əsrin son onilliyində Geologiya İdarəsində işləyən Akif Quliyev idi. O, Laçının Minkənd kəndindən idi. Mən həm dövlət radiosunda çalışarkən, həm də sonralar “Bakı” qəzetində uzun müddət davam etdirdiyim bir rubrikanın mövzuları üçün onunla tez-tez görüşürdüm. Akif müəllim danışırdı ki, Azərbaycan Xalq Cümhuriyyətinin oxumaq üçün xaricə göndərdiyi yüz gəncdən 11-i Laçından, həmin 11 nəfərin doqquzu isə Minkənddən idi. Azərbaycanın çoxlu rayon və kəndləri olduğunu nəzərə alsaq, bu rəqəmlərin fərqinə varmalıyıq.

Xatırladığım ikinci laçınlı isə işğaldan əvvəl rayonda müəllim işləmiş Əlqəmə Əhmədov idi. Bu adam Laçının işğalından ömrünün sonunadək (səhv etmirəmsə, 2013-cü ildə vəfat etmişdir) hər il işğalın ildönümü ərəfəsində redaksiyamıza yazı gətirirdi. Hər dəfə elə bilirdim ki, köhnə yazılarından hansınısa gətirəcək. Ancaq hər dəfə yeni yazı ilə gəlirdi. Bəlkə də Laçının muzey işçiləri, yaxud bu rayonun tarixini öyrənən alimlər Laçın haqqında onun qədər məlumata malik deyildilər.

Əlqəmə müəllim yazırdı ki, Laçının işğalı zamanı 13 min 745 yaşayış evi qarət edilərək yandırılıb. Ümumilikdə, Laçın rayonuna 7,1 milyard ABŞ dollarından çox ziyan dəyib. Rayon 267 nəfər şəhid verib, 66 laçınlı girov götürülüb. İşğala qədər orada 48 sənaye, 63 kənd təsərrüfatı, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət obyekti, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri fəaliyyət göstərib.

Fikrimcə, Laçın haqqında danışarkən Azərbaycanın təbii sərvətlərini qeyri-qanuni istismar edən əcnəbi şirkətlərin fəaliyyətinə etiraz edən ekofəallarımızın 2023-cü ilin aprelində yaydığı bəyanatı da yada salmağa zərurət var. Orada deyilirdi ki, qeyri-hökumət təşkilatları nümayəndələrinin, ekofəalların və gənc könüllülərin Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq 2022-ci il dekabrın 12-dən etibarən Laçın – Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində başladığı dinc etiraz aksiyası 138 gündür ki, davam edir :

“Biz ötən müddətdə gecə-gündüz fasiləsiz keçirilən aksiyada təbii sərvətlərimizin talan edilməsi ilə bağlı şüarlar səsləndirmiş, beynəlxalq ictimaiyyət və təşkilatlardan Azərbaycan ərazilərində törədilən ekoloji cinayətlərə son qoyulmasını istəmişik. Gənc könüllülər və ekofəallar olaraq Azərbaycanın bu sahədə tələbini dünya ictimaiyyətinə çatdırmaqdan və öz haqlı mübarizəmizi aparmaqdan şərəf duyuruq!”

... Hər halda, biz daha həmin tarixə qayıtmır, Laçının bərpasından, möhtəşəm quruculuq işlərindən söz açırıq. Elə bu sətirləri də dövlət başçımızın yuxarıda qeyd etdiyimiz tədbirdə laçınlılara xitabən səsləndirdiyi fikirlərlə tamamlayırıq:

“Əziz laçınlılar, mən sizi bir daha ürəkdən salamlayıram, Şəhər Günü münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz. Bu gün isə artıq dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq!”

İnanırıq ki, həmişə belə olacaq, İnşallah!

***İttifaq MİRZƏBƏYLİ***



**Zəfər marafonunun 13-cü günü**

# Vətən müharibəsinin xronikası: 9 oktyabr

**(əvvəli 1-ci səhifədə)**

• Hadrut qəsəbəsi, Çaylı, Yuxarı Güzdək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı və Sur kəndləri işğaldan azad olunub. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bununla əlaqədar xalqa müraciət edib. Dövlətimizin başçısı adları çəkilən yaşayış məntəqələrinin işğaldan azad olunması münasibətlə bütün Azərbaycan xalqına təbrikini çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: “Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir. Azərbaycan işğal altında olan torpaqları işğaldan azad edir. Demək olar ki, hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Eyni zamanda, strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib olurlar. Beləliklə, əməliyyat planı tam icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda, döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstünlüyə sahib olubdur”.



Azərbaycan Prezidenti xalqa müraciətində döyüş şəraitində düşmən əlinə Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika keçmədiyini, işğalçının bununla bağlı faktları saxtalaşdırdığını, öz xalqını, beynəlxalq aləmi aldatdığını vurğulayıb. Eyni zamanda, Azərbaycan Ordusunun döyüşlərdə öz üstünlüyünü göstərdiyini, əsgər və zabit korpusunun yüksək mənəvi psixoloji keyfiyyətlər nümayiş etdirdiyini bildirib: “Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil. Onlar mövqeləri qoyub qaçırlar. Baxmayaraq ki, 30 il ərzində təmas xətti boyunca və bir neçə xətt üzrə dərin eşelonlanmış müdafiə sistemi qurulub. Mühəndis-istehkam qurğuları qurulub. Onları yarmaq, onları keçmək çox çətindir. Bəzi hallarda bəzi istehkamları keçmək üçün bizə bir neçə gün lazım olur. Eyni zamanda, biz bütün işləri elə aparırıq ki, az itkilər verək”.

• Prezident İlham Əliyev “CNN International” televiziya kanalının “Connect the World” verilişində müsahibə verib. Ali Baş Komandan müsahibədə diqqətə çatdırıb ki, bu müharibə ilə bizim məqsədimiz xalqımızı, ölkəmizi və öz torpağımızda yaşamaq hüququmuzu müdafiə etməkdən ibarətdir. Sentyabrın 27-də Azərbaycanın hərbi mövqelərinə, şəhər və kəndlərimizə artilleriya atəşi açan Ermənistan olmuşdur. Toqquşmalar gedən günlərdə Ermənistan ordusu tərəfindən 31 nəfər mülki şəxs qətlə yetirilmişdir, demək olar ki, 200 nəfər yaralanmışdır, mindən çox ev dağıdılmış və ya onlara ciddi ziyan dəymişdir. Biz cavab verməli idik, özümüzü müdafiə etməli idik. Bizim cavabımız Ermənistan üçün çox həssas və ağrılı oldu. Onlar çox ciddi məğlubiyyət acısını yaşadılar, onlar bizdən qaçdılar, biz ərazimizin bir hissəsini azad etdik, biz işğaldan azad olunmuş ərazilərə milli bayrağımızı sancdıq. Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq. Biz öz torpağımızda savaşırıq, Ermənistan digər ölkənin torpağında vuruşur”.

• “Sky News” telekanalı Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsini yayımlayıb. Müsahibədə jurnalistin “25 faiz azərbaycanlı əhalinin Dağlıq Qarabağa qayıtmasına icazə verilsə, siz Dağlıq Qarabağın müstəqilliyini tanıyarsınız?” sualına cavabında dövlətimizin başçısı bildirib ki, bu məsələ heç vaxt danışıqlar masasında olmayıb. Azərbaycanın mövqeyi həmişə çox aydın olub: Azərbaycan Dağlıq Qarabağın müstəqilliyini heç vaxt tanımayacaq: “Çünki bu, bizim qədim torpağımızdır. Dağlıq Qarabağın tarixi indi yaxşı məlumdur. İkincisi, bu, Azərbaycanın tərkib hissəsidir və biz kiçik sayda olan insanlara nəyə görə müstəqillik verməliyik? Azərbaycan dünyadakı bütün ölkələr kimi multietnik ölkədir. Milli azlıqlar Azərbaycanda və dünyanın bir çox ölkələrində sülh və ləyaqət içində yaşayırlar. Milli azlıq olmaq o demək deyil ki, sizin ayrılmağa, separatizmə hüququnuz var. Separatizm beynəlxalq ictimaiyyət üçün böyük təhlükədir və dünyanın bütün ölkələri separatizmi qınayır”.

Prezident İlham Əliyev müsahibədə vurğulayıb ki, ölkəmizə qarşı yönələn işğal faktı Dağlıq Qarabağda ermənilərin separatizminin və Azərbaycana qarşı Ermənistan dövlətinin hərbi təcavüzünün nəticəsi idi. Bu da bizim indi üzləşdiyimiz vəziyyətə gətirib çıxardı. İşğal bir milyon azərbaycanlının köçkün düşməsi, azərbaycanlılara qarşı etnik təmizləmə aparılması, şəhər və kəndlərimizin dağıdılması ilə nəticələndi: “İndi biz ərazilərimizi azad etdikdə orada baş verənlərə dair videolar mövcuddur. Hər şey məhv edilib, sanki Stalinqraddır, İkinci Dünya müharibəsindən sonra Stalinqradın vəziyyətindən daha da pisdir”.

• Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusunun bölmələri cəbhənin mühüm istiqamətlərində düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 “Akasiya” özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası məhv edilib. Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.

• Müdafiə Nazirliyi: Ermənistan ərazisindən Mingəçevir şəhəri istiqamətində atılan ballistik hədəf Azərbaycanın hava hücumundan müdafiə sistemləri tərəfindən aşkarlanaraq 20 kilometrdən artıq hündürlükdə məhv edilib.

• Müdafiə Nazirliyi düşməndən azad edilən Suqovuşan yaşayış məntəqəsinin görüntülərini paylaşıb.

• Baş Prokurorluq: Döyüşlərdə Ermənistan tərəfindən iştirak etmiş Fransa vətəndaşı Artur Oqanisyan və Gürcüstan vətəndaşı Vaaqn Çaxalyan barəsində cinayət işi başlanıb.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan ərazilərində Azərbaycan bayrağının dalğalanmasını əks etdirən görüntüləri paylaşıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində 9 oktyabr saat 17:00-a olan məlumata görə, 31 mülki şəxs həlak olub, 168 nəfər isə xəsarət alıb. Həmçinin 1091 ev, 143 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb. Bu barədə Baş prokurorluq məlumat yayıb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.



***XQ***

# Azərbaycan–Çin elmi əməkdaşlığı: Strateji inkişaf kursu kontekstində



I MƏQALƏ

### Heydər Əliyevin uzaqgörənliyi

Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlıq xətti dəqiq müəyyən edilmiş qaydalara əsaslanır. Çin Xalq Respublikası ilə əlaqələrin təməli 1994-cü ildə ulu öndər Heydər Əliyevin bu ölkəyə səfəri zamanı qoyulmuşdur. Həmin dövr bütün keçmiş sovet respublikaları üçün geosiyasi seçim baxımından qarışıq mərhələ idi. Heydər Əliyev bu səfəri ilə Azərbaycan Respublikasında müstəqil dövlət quruculuğunun özünəməxsus istiqamətdə aparılacağının işarəsini vermişdir. Ümummilli liderin seçdiyi kursun səmərəliliyi, düzgünlüyü və müasir tələblərə cavab verdiyini faktlar təsdiq edir. Onların sırasında 2024-cü il iyulun 3-də imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" ayrıca yer tutur. Prezident İlham Əliyevin çox uğurlu Çin siyasətinin birbaşa bəhrəsi olan bu sənəd iki ölkə arasında əlaqələrin strateji səviyyəyə yüksəlməsi istiqamətində mühüm amildir.

Həmin sənədin 2.3-cü bəndində yazılmışdır: "Tərəflər iki ölkənin inkişaf strategiyalarının birləşdirilməsini gücləndirməyə..." üstünlük verəcəklər. Yəni Azərbaycan–Çin əlaqələri hətta strateji inkişaf kurslarının sinxronlaşdırılması kimi yüksək inteqrasiya məqamına hədəflənmişdir. Bu bəndin mənası genişdir. Çünki faktiki olaraq, indi mövcud əlaqələri elə genişləndirmək və dərinləşdirmək nəzərdə tutulur ki, stratejidə inkişaf kursları bir-biri ilə harmoniya təşkil edirlər və bir-birini tamamlayırlar. Bu isə kifayət qədər geniş spektrli prosesdir. Təbii ki, həmin prosesdə hər iki ölkənin strateji əhəmiyyəti olan qurumları fəal iştirak etməlidirlər.

Elm və təhsilin strateji əhəmiyyəti olan sahələr olması şübhə doğurmur. Vurğulanan sənədin 3.2 bəndində də yazılmışdır: "Tərəflər elm və texnologiya sahəsində qarşılıqlı faydalı əməkdaşlığın tərəqqisini fəal şəkildə təşviq etməyə hazır olduqlarını bildirirlər" və 3.3. bənddə vurğulanır: "Tərəflər hesab edirlər ki, təhsil sahəsində əməkdaşlıq sabit şəkildə inkişaf edir. Tərəflər təhsil sahəsində əməkdaşlıq haqqında saziş və təhsil sənədlərinin və elmi dərəcələrin qarşılıqlı tanınması haqqında saziş çərçivəsində kadr və dil mübadiləsini, eləcə də universitetlər arasında qarşılıqlı əlaqəni həyata keçirirlər. Tərəflər ali təhsil müəssisələrinin birgə alyansının yaradılması məsələsini müzakirə edəcəklər".

Vurğulanan bəndlərdən aydın olur ki, hər iki ölkənin elm və təhsil qurumlarının üzərinə ciddi vəzifələr düşür. Onlar qarşılıqlı əməkdaşlığı müasir tələblərə uyğun və strateji inkişaf kursları çərçivəsində inkişaf etdirməlidirlər. Təbii ki, bu prosesdə Azərbaycan Milli Elmlər Akademiyasının fəal iştirakı zəruridir. Faktlar göstərir ki, AMEA rəhbərliyi bununla bağlı ardıcıl addımlar atır. Nümunələrə baxaq.

### AMEA: Əlaqələrin inkişaf dinamikası

Son illər AMEA rəhbərliyi Çin Xalq Respublikasının müxtəlif elm və təhsil ocaqları ilə əlaqələri yeni səviyyəyə yüksəldir. Bu proses 2024-cü ildə daha da intensivləşmişdir. O cümlədən, 2024-cü ilin iyun ayında AMEA prezidentinin rəhbərliyi ilə nümayəndə heyəti Çinə səfər etmişdir və səfər zamanı mühüm sənədlər imzalanmışdır.

2022-ci ildən başlayaraq genişlənən elmi əməkdaşlıqda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Mərkəzi fəaliyyət göstərməsinin də öz payı vardır. Burada qarşılıqlı ədəbi əlaqələr istiqamətində tədqiqatlar aparılır və müxtəlif elmi konfranslar təşkil edilir. Bu kontekstdə Azərbaycan–Çin ədəbi əlaqələrinə aid poeziya antologiyasının hazırlanması xüsusi yer tutur.

Bundan başqa, AMEA-nın Ədəbiyyat İnstitutunun Çinin Hebey Pedaqoji Universiteti və Pekin Xarici Dillər Universiteti ilə əməkdaşlığı son illər daha da inkişaf etmişdir. Hebey Pedaqoji Universitetinin dünyanın 35-dən çox elmi qurumu ilə əlaqələri vardır.

2024-cü ilin iyun ayında isə AMEA prezidenti Şiçzyacjuan şəhərində Hebey Sosial Elmlər Akademiyasının rəhbərliyi ilə Anlaşma Memorandumu imzalamışdır. Tədbirdə Azərbaycanla Çin arasında elmi əməkdaşlığın əhəmiyyətindən danışılaraq, onun perspektivlərindən bəhs edilmişdir. Vurğulanmışdır ki, iki ölkənin rəhbərlərinin inkişaf etdirdiyi dostluq münasibətləri "...dünya miqyaslı qlobal layihələrdə ölkələrimizin birgə iştirakının elm sahəsinə də xüsusi diqqət yetirilməsinin vacibliyini önə çıxarmışdır...". Bu da "...dost dövlətlərin prioritet istiqamətlərindən birini təşkil edən elmi əməkdaşlığa da daim diqqət yetirilməsini" zəruri etmişdir.

Memorandumda elmi əməkdaşlığın gücləndirilməsi, prioritet istiqamətlərin inkişaf etdirilməsi, elmi nəşrlərin mübadiləsi üzrə müddəalar öz əksini tapmışdır.

AMEA prezidentinin Çinə səfəri zamanı bir əhəmiyyətli əməkdaşlıq sənədi də imzalanmışdır. Çinin Biomüxtəlifliyin Qorunması və Yaşıl İnkişaf Fondu ilə AMEA arasında "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Memorandumda birgə elmi fəaliyyətin müddəaları yer almışdır.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun da Çinin elmi təşkilatları ilə əməkdaşlığı inkişaf edir. Bu bağlılıqda alimlərin diqqətini Fəlsəfə və Sosiologiya İnstitutunun təşəbbüsü ilə təşkil edilən virtual laboratoriya əməkdaşlıq formatı çəkmişdir. Həmin üsulla rəqəmsallıq dövründə coğrafi olaraq ən uzaq məsafədə yerləşən ölkələrin yaradıcı adamlarının faydalı əməkdaşlığını təşkil etməyin mümkünlüyü sübut olunmuşdur.

Azərbaycan və Çin alimləri Virtual Laboratoriya çərçivəsində dialoq zamanı ən aktual elmi problemləri müzakirə edə bilirlər. Bu prosesdə digər ölkələrin elmi təmsilçilərinin də iştirakı təmin edilir. Bununla da geniş elmi dairələrdə elmin ən aktual problemlərini akademik səviyyədə müzakirə etmək imkanı yaranır.

Onu vurğulayaq ki, virtual laboratoriyada müzakirə edilən elmi məsələlərin həm dövlətçilik, həm də sırf elmi maraqlar baxımından əhəmiyyəti çoxdur. Məsələn, Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşları çinli həmkarları ilə "Bir kəmər, bir yol" layihəsinin fəlsəfi və geosiyasi təhlilini aparmışlar. Bu müzakirələrin nəticələri ayrıca kitabda öz əksini tapmışdır.

AMEA-nın Çinin müxtəlif elmi təşkilatları ilə əməkdaşlığı yalnız Ədəbiyyat və Fəlsəfə və sosiologiya institutları ilə məhdudlaşmır. Artıq daha çox sayda elmi tədqiqat institutları bu prosesə qoşulurlar. Burada duqqət çəkən məqamlardan biri AMEA-nın Çin tərəfi ilə əlaqələrə elm-təhsil vəhdəti kontekstində üstünlük verməsi ilə bağlıdır. Onun çərçivəsində isə müxtəlif elmlər arasında əlaqələrin inkişafı xüsusi yer tutur. Bununla AMEA rəhbərliyi iki elmi məqsədə çatmaqdadır.

Birincisi, Azərbaycanla Çin arasında elmi əməkdaşlıq təhsil də nəzərə alınmaqla ölkənin strateji inkişaf kursunun şərtlərinə uyğun təşkil edilir.

İkincisi, bu prosesdə elmlə təhsilin inteqrasiyası elmlərarası əlaqələrin daha da gücləndirilməsi kontekstində aparılır.

Bu məqsədlərin reallaşması fonunda AMEA ilə Honkonq Kore Akademiyası arasında əməkdaşlıq aktual və əhəmiyyətli görünür.

### AMEA–Honkonq Kore Akademiyası əməkdaşlığı

2024-cü il oktyabrın 7-də AMEA Rəyasət Heyətinin Azərbaycan Milli Elmlər Akademiyası və Çin Xalq Respublikasının Honkonq Kore Akademiyası arasında elmi əməkdaşlığa həsr olunmuş iclası keçirilmişdir.

AMEA prezidenti tədbirdəki çıxışı zamanı Azərbaycanla Çin arasında elmi əlaqələrin inkişaf etdiyini bildirmişdir. Akademik İsa Həbibbəyli aşağıdakı faktları gətirmişdir: AMEA Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Pekin Xarici Dillər Universiteti və Hebey Pedaqoji Universiteti ilə sıx əməkdaşlıq edir.

Hazırda AMEA ilə Pekin Xarici Dillər Universiteti, Hebey Pedaqoji Universiteti və Hebey Sosial Elmlər Akademiyasının "Xəzərdən Çin səddinədək" mövzusunda birgə elmi layihəsi icra edilir. Bu istiqamətdə artıq ilk elmi konfrans 2024-cü ilin iyun ayında Çində keçirilmişdir. Növbəti tədbir isə 2025-ci ildə Bakıda keçiriləcək.

Bunlarla yanaşı, Pekin Xarici Dillər Universitetində "Azərbaycan dili" ixtisasının tədris olunması ayrıca əhəmiyyətli hadisədir. AMEA həmin universiteti azərbaycandilli elmi-ədəbi, tarixi və digər əlavə ədəbiyyatla təmin etmişdir. Akademiyanın bu kimi addımları birbaşa dövlətçiliyə, milli mədəniyyətin təbliğinə, təşviqinə və dilimizin praktiki fəaliyyət arealının genişlənməsinə xidmət edir.

Akademik İsa Həbibbəyli Honkonq Kore Akademiyası nəzdində Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasının əhəmiyyətli olduğunu xüsusi vurğulamışdır.

Honkonq Kore Akademiyasının İcra Şurasının üzvü professor Li Leinin əməkdaşlıqla bağlı ifadə etdiyi fikirlərdə iki maraqlı məqamı qeyd etmək olar.

Birincisi, professor Li Le geniş əməkdaşlıq perspektivlərinin mövcudluğundan bəhs etmişdir. O cümlədən, "qarşılıqlı bilik və təcrübə mübadiləsi aparmaq üçün ortaq laboratoriya və ya mərkəz" yaradıla bilər.

İkincisi, Honkonq Kore Akademiyası "Azərbaycanda təkcə humanitar və ictimai elmlər sahəsində deyil, bərpa olunan enerji, "yaşıl energetika" və digər sahələrdə həyata keçirilən tədbirlərə də öz töhfəsini verməyə hazırdır".

### İki aktual məsələ

Hər iki tərəfin fikirlərindən belə görünür ki, əməkdaşlığı dinamik olaraq genişləndirmək və dərinləşdirmək niyyəti vardır. Bu istiqamətdə AMEA və Honkonq Kore Akademiyası təmasları intensivləşdirmək və artırmaq istəyindədirlər. Şübhəsiz ki, qarşılıqlı olan bu kimi niyyətlər sayəsində, bütövlükdə, Azərbaycanla Çin arasında elm və təhsil sahəsində əməkdaşlıq yüksələn xətlə inkişaf edəcəkdir.

Yuxarıda vurğulanan məqamlar və faktlar fəlsəfi xarakterli iki məsələ üzərində düşünməyə sövq edir. Onlardan biri AMEA-nın yeniləşmə kursunda Çin faktorunun yeri və rolu ilə bağlıdır. Bu, bütövlükdə qalıcı elmi tərəqqiyə nail olmaq baxımından maraqlı və əhəmiyyətli məsələdir.

Digər məqam isə Çin elmi təşkilatları ilə strateji inkişaf kursu çərçivəsində əməkdaşlıq platformasının ölkəmiz üçün əhəmiyyəti yüksək olan Türk Dövlətləri Təşkilatına (TDT) daxil olan dövlətlərin elmi təşkilatları ilə əməkdaşlıq strategiyası arasında harmoniyanın yaradılması ilə əlaqəlidir.

Niyə məhz TDT üzvləri? Əlbəttə, kimsə Avropa və Rusiya istiqamətini arxa plana atmır və bu, faydalı olmazdı. Lakin diqqət etsək, görərik ki, TDT istiqaməti Azərbaycanın strateji inkişaf kursunda xüsusi yer tutur və AMEA rəhbərliyi də bu reallığa uyğun addımlar atır. Eyni zamanda, Çin indi dünyanın ən sürətlə inkişaf edən və elmi potensialı yüksək olan dövlətidir. Çinlə elmi əməkdaşlıq sırf elmi çərçivəni aşır və geosiyasi, siyasi, mədəni və başqa anlamlar alır. Bu baxımdan strateji inkişaf müstəvisində TDT və Çin faktorlarının bütün sferalarda münasibətlərinin müstəqil dövlətçilik maraqlarına uyğunlaşdırılması prinsipial mahiyyət daşıyır.

O da aydındır ki, məsələnin bu cür qoyuluşu özlüyündə AMEA faktorunu hər iki istiqamətdə – TDT və Çin istiqamətlərində daha da aktuallaşdırır. Məsələnin bu aspekti üzərində fəlsəfi kontekstdə geniş dayanmaq zərurəti meydana gəlir.

(ardı var)

**Füzuli QURBANOV,**
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

---

*Türküstanı gəzə-gəzə...*

# Türküstanda bolşevik-daşnak soyqırımları



II YAZI

### Türküstan Muxtariyyəti ləğv edilir

1918-ci il fevralın 9-da (yeni tarixlə 22 fevral) Kokanddakı Rusiya–Asiya Bankının binasında münaqişə edən tərəflər arasında bolşeviklərin hazırladığı "Sülh müqaviləsi" imzalanır. Bununla da 72 gün yaşayan Türküstan Muxtariyyəti ləğv edilir və buna cavab olaraq milli azadlıq partizan hərəkatı yaradılır və fəaliyyətə başlayır. Bu hərəkatın üzvlərinə basmaçı deyilir. Basmaçıları ruslar quldur kimi qələmə versələr də, onlar özünümüdafiə üçün birləşən sadə insanlar idilər. Milli azadlıq hərəkatının komandirləri olan kürbaşılar yerli müsəlmanları cihada, daşnaklarla və bolşeviklərlə mübarizəyə səsləyirdilər.

Fərqanə vadisində milli azadlıq hərəkatı Kiçik Erqaş və Katta Erqaşın adı ilə bağlıdır. Baçkir kəndində daşnaklarla döyüşdə Kiçik Erqaş şəhid olandan sonra onun yerini Katta Erqaş tutur. Erqaş kurbaşı və onun 8000 döyüşçüsü müqəddəs "Quran"a and içirlər ki, son damla qanlarına qədər bolşeviklərlə mübarizə aparacaqlar. 1919-cu ilin yayında Erqaş Mərgilan uğrunda döyüşlərdə həlak olur, onun sələfi Xalxoca öz döyüşçüləri ilə birgə Madaminbekin ordusuna qoşulur.

### Fərqanə Müvəqqəti Muxtar hökuməti

1919-cu il sentyabrın 22-də Fərqanə Müvəqqəti Muxtar hökuməti yaradılır. Onun tərkibinə 6 müsəlman, 8 rus daxil olur. Hökumətin başçısı və Əli Baş Komandan Madaminbek seçilir. Madaminbek Kaşqardakı Rusiya konsulunun və İngiltərənin baş konsulu Esertonun köməyi ilə dünya ictimaiyyətinə Türküstan milli azadlıq hərəkatı tanımaları ilə bağlı çağırış edir. Madaminbek Fərqanə vadisində bolşevik rejiminə və daşnaklara qarşı qüvvələri birləşdirməyə nail olur. Onlar "Türküstan türküstanlıların vətənidir. Heç kimin onu ələ keçirməyə ixtiyarı yoxdur!" şüarı altında mübarizə aparırdılar.

Basmaçılar ermənilərin nəzarəti altında olan kəndlərə tez-tez hücum edirdilər. Döyüş meydanında basmaçılarla bacarmayan erməni cəlladlar acıqlarını günahsız qadınlardan, qocalardan və uşaqlardan çıxırdılar. 1918-ci ilin dekabrında basmaçılara qarşı növbəti əməliyyat zamanı ermənilər Xanul-Abar kəndindəki bütün qadınları oğurlayıb qənimət kimi Əndican qalasına salırlar.

### Ermənilərin Daşkənd qırğınları

1919-cu ildə üsyançılar Daşkəndə hücum edir, əsasən ermənilərdən ibarət olan qarnizon bu hücumda köhnə Daşkənddə yaşayan əhalini günahlandırır, qarətlər, qətllər, zorakılıqlar başlayır. Tarixçilər yazırlar ki, daşnaklar qadınları arabalara doldurub qalaya aparır, evləri yandırır, məscid və mədrəsələri dağıdırdılar. Kəndlərdə mal-qaranı, buğda taylarını özləri ilə aparırdılar. Ermənilər təkcə fiziki zorakılıqla kifayətlənmir, əhalini daim qorxu içində saxlayırdılar. Məsələn, Daşkənddə şayiə yayırdılar ki, Qırmızı ordu köhnə şəhəri məhv etmək istəyir. Əhali qorxu içində doğma evlərini tərk edib əyalətlərə qaçırdı.

Türküstanın xalq komissarlarının liderlərindən olan K.Sorokin yazırdı: "Müsəlmanların var-yoxunu əllərindən alıb özlərini öldürürlər. Bizim əsgərlər əhalini daşnaklardan qorumaq əvəzinə, onları qarət edir və qətlə yetirirlər. Xalq qorxu içində qaçır. Partiya üzvləri vəziyyəti düzəltmək üçün heç bir iş görmürdü. Müsəlman proletariat kömək üçün ruslara üz tutur, ruslar isə onlara inanmadıqlarını deyirlər. Ordu qoca-cavan demədən, hamını qırır və bununla da biz özümüz onları millətçilərə çeviririk".

Erməni hərbi qüvvələri əsasən şəhərləri nəzarət altında saxlayırdılar. Lakin basmaçılar buraya da hücum etdikləri üçün daşnaklar qalalarda gizlənib Qırmızı ordudan kömək gözləyirdilər. Daşnaklar həmişə sovet hökumətinin yanında olacaqlarını dilə gətirirdilər. Deyirdilər ki, biz ancaq bu yolla Türküstandakı erməni diasporunu düşmənlərdən, yəni müsəlmanlardan qoruya bilərik.

Bolşeviklər ermənilərdən yalnız cəllad kimi istifadə edirdilər, əslində isə onlara hərbi işi bilən qüvvələr lazım idi. Bolşeviklər anlayırdılar ki, ermənilərin müsəlmanlara nifrəti yerli əhali arasında üsyankar qüvvələrin çoxalmasına səbəb olur. Bolşeviklər bilirdilər ki, müsəlmanların iştirakı olmadan Sovet hakimiyyətini qurmaq çətin olacaq. Artıq üsyançıların bəzi liderləri erməni qüvvələr olmasa, silahı yerə qoyacaqlarını bildirirdilər.

Türküstan kommunist partiyasının yığıncağında kommunist müsəlmanlar sovet hökumətinin "Daşnaksütyun"la əməkdaşlığını pisləyir və Fərqanədəki zorakılığa son qoymağa çağırırlar. Buna baxmayaraq, kommunistlər və daşnaklar əməkdaşlığa davam edirlər. 1919-cu ilin martında Türküstan şurasının fövqəladə qurultayında müsəlman nümayəndələrin irəli sürdüyü qətnamədə deyilir ki, təcili olaraq daşnak dəstələri tərksilah edilməli, Qırmızı ordu bu cinayətkar ünsürlərdən təmizlənməlidir.

### Əndicanda erməni zorakılıqları

Türküstan MİK Fərqanə komissiyasının üzvü Turar Rıskulov daşnakların əsas qüvvəsinin toplaşdığı Əndicanda ermənilərin müsəlmanlar üzərində zorakılıqları haqqında Daşkəndə məlumat verir. Məlumatda bildirilir ki, Əndicandakı erməni icması qısa müddət ərzində sovet hökumətindən 800 avtomat silah alıb, icma üzvləri tamam silahlanıblar.

Beləliklə, 1919-cu il iyunun 16-da Türküstan kommunistlərinin müsəlman bürosunun konfransında ermənilərin tərksilah edilməsi haqqında əmr verilir. Fərqanə erməni icmasından silahları təhvil verməyi tələb olunur. Türküstandakı Qırmızı ordu komandanlığına əmr verilir ki, daşnakları öz sıralarından çıxarsınlar. Daşnaklar silahlarını verməkdən istəməsələr də, Türküstan MİK-in nəzarəti altında çox sayda silah və döyüş sursatı müsadirə olunur. Qırmızı ordu "Daşnaksütyun" üzvlərinin evlərində axtarış aparır, silahları verməyənləri hərbi tribunalın hökmü ilə güllələnirlər. Türküstan KP müsəlman bürosunun birinci qurultayında elan edilir ki, Əndicanda, Kokandda və Skobelevdə daşnaklar tamamilə tərksilah olunub.

Bəzi mənbələrə görə isə daşnakların silahlarını almırlar, yalnız qeydiyyatdan keçirirlər.

Sonrakı mərhələdə Türküstanda "Daşnaksütyun" partiyasının özəklərini, guya, ləğv edirlər. Əslində isə onlara yeni bir təşkilat – "Erməni qardaşlığı" yaratmağa imkan verirlər. Belə ki, üzdə erməni silahlı qüvvələri buraxılsa da, Orta Asiyada ermənilərin nüfuzu qalmaqda davam edir.

Bir vaxtlar "Daşnaksütyun" partiyasının üzvü olan, qatil Derenik Apresyan sonralar Özbəkistan SSR Dövlət Təhlükəsizlik Xidmətinin başçısı təyin olunur. Azərbaycanda yaxşı tanıdığımız digər daşnak Levon Mirzoyan isə Qazaxıstanın rəhbəri təyin edilir, nəticə isə belədir: Levon Mirzoyanın Qazaxıstanda işlədiyi 1936–1938-ci illərdə 110 min qazax sürgün edilib, 25 min insan isə güllələnib. Bu isə başqa söhbətin mövzusudur.

SSRİ tarixində erməni millətçilərinin cinayətləri, Türküstanda müsəlmanların soyqırımı haqqında məlumat çox azdır. Bu soyqırımında müsəlmanların özlərini, yəni basmaçıları və ağqvardiyaçıları günahlandırırlar. Əsl günahkarlar isə kadr arxasındadır. Bu gün nə Ermənistan, nə insanlığa qarşı cinayətlərdə əli olan, Hayastanın leqal siyasi partiyası "Daşnaksütyun" 1918–1919-cu illərdə Türküstanda müsəlmanlara qarşı törətdikləri genosidi qəbul edir, nə də bu məsələni müzakirəyə çıxarmaq istəyirlər. Uzun illərdir Ermənistan bar-bar bağırıb dünya ölkələrindən "erməni genosidi"ni qəbul etmələrini tələb edir, lakin özünün bəşəriyyətə qarşı qanlı cinayətlərini – Azərbaycan, Şərqi Anadolu və Orta Asiyanın dinc əhalisinə qarşı soyqırımı törətdiyini boynuna almaq istəmir... Lakin o gün gələcək.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri,***
**Daşkənd**

# Milli Məclisin plenar iclası

**Dünən Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib.**




İclasda Sahibə Qafarova Milli Məclisin deputatlarının ölkəmizin xarici işlər naziri Ceyhun Bayramova müraciət edərək, ABŞ Konqresinin bir qrup üzvünün həmin ölkənin Dövlət katibinə məlum məktubu ilə əlaqədar narahatlıqlarını bildirdiklərini deyib. O xüsusilə vurğulayıb ki, Azərbaycan hər zaman beynəlxalq münasibətlər sisteminin məsuliyyətli üzvü, etibarlı tərəfdaş kimi çıxış edib.

Sonra iclasda cari məsələlər müzakirə olunub.

Milli Məclisin sədri iclasın gündəliyində 28 məsələnin olduğunu deyib. O qeyd edib ki, ilk 7 məsələ ölkə Prezidentinin təqdimatları əsasında bir sıra məhkəmələrin hakimlərinin təyin və vəzifədən azad edilməsi ilə bağlı qərar layihələridir.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli hakimlərin təyin və vəzifədən azad edilməsi haqqında məsələlər barədə məlumat verib. Milli Məclis qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Sonra parlamentin sədri bildirib ki, gündəliyin 8-ci məsələsi "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya Qanunudur. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu məsələ barədə məlumat verib. Layihə II səsvermədə qəbul edilib.

S.Qafarova növbəti 8 məsələnin beynəlxalq sənədlərin təsdiqi ilə əlaqədar qanun layihələri olduğunu söyləyib. Qeyd edib ki, beynəlxalq müqavilələrə bağlı olduğuna görə bu qanun layihələri "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək. O, gündəliyin 9-cu məsələsinin "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu deyib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bu qanun layihəsini təqdim edib. Komitə sədri qeyd edib ki, COP29 Azərbaycan üçün iqtisadi, diplomatik və ekoloji sahələrdə yeni imkanlar yaradacaq və ölkəmizin nüfuzunu daha da artıracaq. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sazişin əhəmiyyəti barədə öz fikirlərini açıqlayıb və rəhbərlik etdiyi komitənin sənədlə bağlı müsbət rəy verdiyini söyləyib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin sədri gündəliyin növbəti 2 məsələsinin Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu və hər 2 qanun layihəsinin Azərbaycan və Belarus hökumətləri arasında kənd təsərrüfatının müxtəlif sektorlarında iş birliyi haqqında protokolların təsdiq edilməsi ilə bağlı olduğunu deyib.

Qeyd edilib ki, hazırkı protokollar bu sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi məqsədilə sazişlərə müəyyən dəyişikliklərin edilməsini nəzərdə tutur. Dəyişikliklərə əsasən, Azərbaycan Respublikası Hökuməti tərəfindən Qida Təhlükəsizliyi Agentliyi səlahiyyətli orqan qismində təyin olunur. Sazişlərə bəzi anlayışların əlavə edilməsi də nəzərdə tutulur. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

"Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi təqdim edilib. Diqqətə çatdırılıb ki, saziş 2024-cü il mayın 24-də Bakı şəhərində imzalanıb, 24 maddə və 7 əlavədən ibarətdir. Saziş bir ölkədə qanuni yaşamaq icazəsi olmayan şəxslərin digər ölkəyə geri qaytarılması prosedurlarını ehtiva edir. Bu cür sazişlər adətən, bir ölkədə qanunsuz yaşayan insanların öz vətənlərinə və ya yaşadıqları ölkəyə qaytarılmasını təmin etmək məqsədilə imzalanır. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

S.Qafarova növbəti 3 məsələnin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu, Azərbaycan və Pakistan hökumətləri arasında müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin tənzimlənməsi ilə bağlı olduğunu söyləyib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bu qanun layihələrinin mahiyyəti barədə məlumat verib. Hər 3 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Digər qanun layihələri də növbə ilə müzakirəyə çıxarılaraq qəbul edilib.

*XQ*

# Qərbin Ermənistana dəstəyi bu ölkəni məhvə doğru sürükləyir



**(əvvəli 1-ci səhifədə)**

Dövlətimizin başçısı ABŞ-nin Azərbaycana qarşı münasibətindəki son dövrlər özünü daha qabarıq göstərən riyakarlıq məqamı üzərində dayanıb. Birləşmiş Ştatların bu dəst-xətti, bütövlükdə, kollektiv Qərbin anti-Azərbaycan ritorikasının məhsuludur. Bu ritorikanın güclənməsində məqsəd isə məlumdur. Ölkəmizi BMT-nin İqlim Dəyişikliyi üzrə 29-cu konfransı – COP29 müstəvisində ləkələmək, Bakının nüfuzlu toplantıya evsahibliyinə kölgə salmaq. Əlbəttə, daha böyük məqsədlər də var. Yazımızda bu barədə də söhbət açacağıq.

Məlumdur ki, ABŞ başda olmaqla, kollektiv Qərb Cənubi Qafqazda erməni avantürizminin saxlanılmasında maraqlıdır. Qərb bu yolla, həm Rusiyanı regiondan sıxışdırmaq, həm də Azərbaycana qarşı təzyiq alətlərini diri tutmağı düşünür. Özünün ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan modeli ona, qətiyyən, sərf eləmir. Ona görə hərəkətə keçir, ölkəmizi beynəlxalq ictimaiyyətin gözündən salmaq yolunu tutur. COP29 isə bu baxımdan kifayət qədər, münbit platforma kimi dəyərləndirilir. Axı dünyanın gözü ölkəmizdədir. Deməli, belə demək mümkünsə, erməni avantürizmini COP29-la əlaqələndirmək mümkündür. Daha doğrusu, belə bir "əlaqələndirmə" gündəmdədir.

Bəli, tam əminliklə deyə bilərik ki, Qərb, o cümlədən, ABŞ Ermənistanın, erməni millətçiliyinin Qarabağ avantürizmi üzərinə siyasi sərmayə yatırmaqla məşğuldur. Beynəlxalq hüquqa zidd olan bu yanaşmanın tərkib hissəsi kimi, Bakı həbsxanalarında saxlanılan Qarabağdakı keçmiş separatçı rejimin təmsilçilərinin azadlığa çıxmaları ilə bağlı kampaniya aparılmaqdadır. Rəsmi İrəvan bu "kampaniyadan" uzaq kimi görünsə də, məlumdur ki, mövcud istiqamətdə ciddi koordinasiyaya malik birgə fəaliyyət mövcuddur.

Hər halda, Qarabağ separatçı rejiminin İrəvandakı təmsilçilərinin ABŞ Konqresinə dəvət edilmələri, qurumda "Dağlıq Qarabağın süqutu"na həsr olunmuş tədbirin düzənlənməsi, Birləşmiş Ştatların hökumət, parlament və vətəndaş cəmiyyəti institutlarının Qarabağdan köç etmiş ermənilərə dəstək xarakterli çoxsaylı təşəbbüsləri, konqresmen Adam Şiff və həmkarları tərəfindən irəli sürülmüş 2024-cü il üçün "Artsax gəlirlərinin bərpası aktı", USAID-in rəhbəri Samanta Pauerin "ermənilərin Qarabağdan kütləvi köçü"nə dair bəyanatı və ümumən bu qurumun Ermənistan təəssübü baş nazir Nikol Paşinyan administrasiyası ilə razılaşdırılmamış proses ola bilməz.

"Artsax respublikası"nın keçmiş "ombudsmanları" Yuri Ayrapetyan, Ruben Melikyan, Artak Beqlaryan, eləcə də Ermənistanın keçmiş ombudsmanları Arman Tatoyan və Larisa Alaverdyan oktyabrın 11-də BMT-nin Ermənistandakı ofisinin, Ermənistan Xarici İşlər Nazirliyinin, habelə ABŞ-nin, Rusiyanın və Fransanın Ermənistandakı səfirliklərinin binası yaxınlığında etiraz aksiyaları düzənləməyi planlaşdırırlar. "Ombudsmanlar" aksiya ilə Bakıda həbsdə olan separatçıların və Azərbaycan ərazilərində kəşfiyyat-diversiya fəaliyyəti həyata keçirməyə çalışan ermənilərin azadlığa çıxmalarını tələb etmək istəyirlər. Təşkilatçılar COP29 məsələsində ölkəmizə təzyiq göstərilməsini hədəflədiklərini gizlətmirlər. Yada salaq ki, ABŞ Senatının və Nümayəndələr Palatasının bir qrup üzvü 2024-cü il oktyabrın 3-də ölkənin dövlət katibi Antoni Blinkenə ünvanladıqları müraciətdə də müharibə cinayətkarlarının azadlığa buraxılmalarına və Ermənistanın hərbiləşdirilməsinə dair çağırış səsləndiriblər. Şübhəsiz, bütün bunlarda da rəsmi İrəvanın əli var.

Göründüyü kimi, Qərb müxtəlif istiqamətlərdən Azərbaycana qarşı təzyiq yolu tutub. Mövcud istiqamətdəki məqsədlərdən söz açdıq. Ən başlıca məqsəd isə Bakının İrəvanla sülh prosesində yumşalmalara getməsinə nail olmaqdır. Ermənistanın sürətlə silahlandırılması da buna xidmət edir, Birləşmiş Ştatların ölkəmizə ünvanlanan sanksiya hədə-qorxuları da həmçinin. Bildirdiyimiz kimi, Qərb Cənubi Qafqazda erməni avantürizmini diri saxlamaq barədə düşünür. Bunun yolu isə həmin avantürizm üçün münbit zəmin formalaşdırmaqdan keçir.

Qərbdə hesab edirlər ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməməlidir. Mühüm şərt isə Naxçıvana maneəsiz, yəni, heç bir gömrük və sərhəd nəzarəti olmayan yolun təminatıdır. O yol ki, ölkəmiz onu "Zəngəzur dəhlizi" adlandırır. O dəhliz ki, Şərqlə Qərbi birləşdirəcək Orta dəhliz məntiqindəki başlıca halqadır. İrəvan buna qarşılıq özünün "Dünyanın kəsişməsi" ideyasını ortaya atır. Bu ideya Ermənistanı qlobal nəqliyyat xabının əsas fiquruna çevirə bilər. Bu status ölkəyə həm iqtisadi, həm hərbi gücünü artırmaq, üstəlik, istənilən an mühüm nəqliyyat kommunikasiyalarının işini iflic etmək imkanı yaradır.

Deməli, əgər hazırda Azərbaycana Qarabağ məsələsində təzyiq etmək əldən çıxıbsa, Qərb təzyiqin yeni seqmentini işə salır. Eyni zamanda, nəzərə alaq ki, "Dünyanın kəsişməsi" prinsip etibarilə "Rusiyasız Cənubi Qafqaz" planının tərkib hissəsidir. Əlbəttə, Azərbaycan üçün Rusiyanın bölgədə varlığı ilə yoxluğu elə bir əhəmiyyət daşımır. Eləcə də Qərbin anti-Rusiya köklənişinin ölkəmiz üçün hansısa önəmi yoxdur. Bizim üçün erməni avantürizminin Cənubi Qafqazdakı sülh və əməkdaşlıq formulunu təhdid etməməsi, onun heç bir təhdid rıçağına malik olmamasıdır.

Rusiyanın üçtərəfli bəyanat məsələsindəki rolunun nəzərə alınması isə oyun qaydalarının düzgünlüyü baxımından vacibdir. Axı üçtərəfli bəyanat Moskvanın Ermənistanla bağlı üzərinə götürdüyü öhdəlikdir. 2020-ci ildə hazırda İrəvanın sığındığı Qərb belə bir öhdəliyi üzərinə götürə bilirdimi? Xeyr! Rusiya üçtərəfli bəyanatla Ermənistanı, necə deyərlər, Azərbaycanın əlində qalıb tamamilə məhvə sürüklənməkdən qurtarıbsa, deməli, onun həmin sənədlə malik olduğu imtiyazların nəzərə alınması şərtdir. O cümlədən, Naxçıvana yol məsələsində yaratmalı olduğu təhlükəsizlik tədbirləri də.

Sonda qeyd edək ki, hazırda Qərb istər COP29 məsələsində, istərsə də digər müstəvilərdə anti-Azərbaycan fəaliyyət gerçəkləşdirib ermənipərəst mövqeyə köklənirsə, yaxın keçmişi yada salmalıdır. Daha doğrusu, həm 44 günlük müharibə, həm də lokal xarakterli antiterror tədbirləri dönəmini. Qərbin İrəvana illüziya vədindən başqa hansısa real dəstəyi, faydası olubmu? Xeyr! Ermənistanda bunu düşünməlidirlər. Ancaq düşünmürlər, baş nazir Nikol Paşinyan və komandası reallığı dərk etməyəcək qədər iflic durumdadır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Baş Prokurorluqda toplantı

**Oktyabrın 8-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun geniş kollegiya iclası keçirilib.**





Geniş kollegiya iclasında Kamran Əliyev prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 106 illiyi münasibətilə bir qrup prokurorluq işçisinin Prezident İlham Əliyev tərəfindən yüksək dövlət mükafatlarına layiq görülməsi ilə əlaqədar prokurorluq işçiləri adından ölkə rəhbərliyinə təşəkkür və dərin minnətdarlıq bildirilib.

Baş prokuror tərəfindən Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasət sayəsində ölkəmizin beynəlxalq əlaqələrinin daim inkişaf etməsi, ölkəmizin beynəlxalq nüfuzunun günü-gündən artması, bir sıra regional, eləcə də beynəlxalq tədbirlərə evsahibliyi etməsi qeyd edilib və bu tədbirlər çərçivəsində ölkəmiz və prokurorluq üçün müstəsna əhəmiyyət kəsb edən, 170-dən çox dövlətin üzv olduğu Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclasının, 29-cu İllik Konfransının və Ümumi Yığıncağının cari il sentyabrın 27-dən oktyabrın 2-dək paytaxt Bakı şəhərində yüksək peşəkarlıq və təşkilatçılıqla keçirildiyi iştirakçıların diqqətinə çatdırılıb.

Eyni zamanda çıxışda qeyd olunub ki, bu ilin noyabr ayında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP 29) çərçivəsində Baş Prokurorluğun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) ilə birgə noyabr ayının 15-də "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda plenar iclasın keçirilməsi nəzərdə tutulub.

Bundan əlavə, qeyd edilib ki, cari ilin dekabr ayında Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının birgə təşkilatçılığı və Türk Ədliyyə Təlim Şəbəkəsinə daxil olan ölkələrin nümayəndələrinin iştirakı ilə Bakı şəhərində beynəlxalq konfrans keçiriləcək.

Tədbir zamanı Baş prokuror K.Əliyev tərəfindən peşə bayramı münasibətilə müvafiq əmrlə təltif edilən bir qrup prokurorluq əməkdaşına mükafatlar təqdim edilib.

Bundan başqa, cari ildə prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilən 26-cı müsabiqənin gedişatı barədə məlumat verilərək, prokurorluğun fəaliyyəti ilə əlaqədar bir sıra kadr məsələləri üzrə qərarlar qəbul edilib.

*XQ*

# Külək Goranboyda dağıntı törədib

**Goranboyda küləkli hava şəraiti bəzi fəsadlara yol açıb.**

Təbiət hadisəsi nəticəsində Goranboy–Naftalan avtomobil yoluna irigövdəli ağac aşıb. Nəticədə, nəqliyyatın hərəkətində çətinliklər yaranıb. Küləkli hava şəraiti rayonun bir neçə kəndində elektrik enerjisinin verilməsində fasiləyə səbəb olub.

Qeyd edək ki, hazırda Qərb bölgəsində qeyri-sabit hava şəraiti hökm sürür.



*XQ*




## "Yaşıl dünya" naminə həmrəylik



*Bəşəriyyətin narahat gündəmi*

# Ekoloji fəlakətdən "yaşıl" transformasiyaya körpü

## *COP29-a yol haradan başlayır?*

**(əvvəli qəzetin ötən saylarında)**

### "Yaşıl" keçid yeni şəraitdə

Rusiya ilə Qərb ölkələri arasında kəskin münaqişənin başlanmasından sonra yaranmış yeni geosiyasi və iqtisadi reallıqlarda dünya iqtisadiyyatının "yaşıl" transformasiyası ciddi problemlərlə üzləşir. Avropa İttifaqı ölkələri kömürlə işləyən elektrik stansiyalarını yenidən işə salır və təbii qazdan daha çirkli yanacağa keçir; Hindistan və Çin Rusiya neftini böyük endirimlə alır və eyni zamanda, bərpaolunan enerji mənbələrini inkişaf etdirməklə yanaşı, kömürdən də istifadəni genişləndirir; "yaşıl" texnologiyalar baxımından dəyər zəncirləri qırılır. Nəticədə, qısa müddətdə dünyanın ən böyük istixana qazları emissiyalarından bəziləri məhz daim sürətlənən templə irəliləmək lazım gəldikdə müxtəlif dərəcədə qlobal iqlim gündəmindən "kənar" olurlar. İqlim skeptikləri və iqtisadiyyatın ənənəvi, ilk növbədə, kömür sektorlarının nümayəndələri qalib gələrək yenidən tələbat tapırlar.

Lakin bütün bu tendensiyalar o demək deyil ki, "yaşıl" keçid hələ tam başlamamışdan artıq başa çatıb. O artıq dünyanın aparıcı iqtisadiyyatlarının siyasi gündəminə möhkəm şəkildə daxil olub; irimiqyaslı dövlət və özəl investisiyalar səfərbər edilib; yeni iş yerləri və bütövlükdə, yeni sənayelər, institusional strukturlar, ideoloji platformalar və beynəlxalq qarşılıqlı fəaliyyət üçün formatlar yaradılıb. Bütün bunlar dövlətlərin mövcudluğunun bütün sahələrinə o qədər dərindən inteqrasiya olunub ki, heç bir qüvvənin siyasi vəziyyətinin təsiri altında onu ləğv etmək mümkün deyil. Müvafiq olaraq, orta müddətli perspektivdə geosiyasətin dövrümüzün "yaşıl" tendensiyaları ilə necə sintez oluna biləcəyinə əsaslanan yeni tarazlığın yaranmasını gözləmək qalır. Bunun isə necə inkişaf edəcəyi iqtisadi böhran və siyasi ziddiyyətlərdən çıxış perspektivlərindən asılıdır.

Dünya üçün optimist ssenari ötən əsrin 70-ci illərindəki enerji böhranından xilasın, bir növ, təkrarı olan "yaşıl sıfırlama"dır. Həmin dövrdə dünya iqtisadiyyatı bir çox cəhətdən indikilərə bənzəyən çağırışlarla üzləşdi: qabaqcıl Qərb ölkələrində kritik ziddiyyətlər yığılmışdı, əvvəlki iqtisadi inkişaf modeli dövlətin və Keynsçi iqtisadiyyatın (bu iqtisadi nəzəriyyəyə görə, böhran dövründə, bazar mexanizmləri uğursuz olduqda, hökumət müdaxilə etməli və tələbi stimullaşdırmalıdır–İ.R.) fəal roluna əsaslanaraq, tədricən dalana dirənmiş, ancaq geosiyasi ziddiyyətlərin kəskinləşməsi nəticəsində yaranan və uzunmüddətli staqflyasiyaya səbəb olan enerji daşıyıcılarının qiymətlərinin artması nəticəsində o, məhv edilmişdir.

Qərb iqtisadiyyatları həmin böhrandan təkcə iqtisadi inkişaf modelini dəyişdirməklə deyil (post-sənaye cəmiyyətinə keçid, iqtisadiyyatın maliyyələşdirilməsi və neoliberal iqtisadi siyasətlər var idi), həm də enerji sistemini kökündən yenidən qurmaqla çıxdı: təbii qaz dominant rol oynamağa başladı, Avropanı Rusiya ilə birləşdirən (və demək olar ki, 50 il fasiləsiz işləyən) boru kəmərləri şəbəkəsi meydana çıxdı, nüvə enerjisi sürətlə inkişaf etməyə başladı və enerjiyə qənaət edən texnologiyalar geniş yayıldı. Hazırda enerji sisteminin yüksək enerji qiymətlərinə oxşar tənzimlənməsi yalnız "yaşıl" relslərə keçidin sürətləndirilməsi ilə mümkündür.

Pessimist ssenari dünyanın müxtəlif ölkələrində sosial-iqtisadi vəziyyətin kəskinləşməsi və davam edən siyasi ziddiyyətlərlə müşayiət olunan uzunmüddətli durğunluqdur. Belə şəraitdə enerji keçidi uzanacaq və bununla yanaşı, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dünyada bütün sosial-iqtisadi inkişafın problemləri ləngiyəcək.

İstənilən ssenaridə yeni enerji ixracatçılarının formalaşması və ənənəvi olanların qeyri-müəyyən rolu ilə dünyanın enerji xəritəsinin köklü şəkildə yenidən qurulmasının başlanğıcı artıq göz önündədir. Bu arada, aşağı karbon texnologiyaları sahəsində yaranan inqilabın bir hissəsi kimi istehsalın maya dəyərini və miqyasını ilk azaldacaq və bununla da yeni kritik materiallara sahib olacaq yeni liderlər formalaşacaq. "Yaşıl" transformasiya enerji, resurslar və texnologiya ilə yanaşı, bir sıra sahələrdə – təhlükəsizlik, ticarət, elm və s. sahələrdə də yeni qarşılıqlı asılılıqların yaranmasına və mövcud olanların mümkün qədər zəifləməsinə səbəb olacaq.



Yeni qarşılıqlı asılılıqlarla bərabər, yeni ittifaqlar da formalaşacaq, mövcud olanlar isə iqlim komponenti ilə möhkəmləndiriləcək (məsələn, "iqlim klubu"nun formalaşdırılması). Ənənəvi geosiyasət də transformasiyaya məruz qalacaq: dövlətlərin coğrafi mövqeyində müəyyən amillərin əhəmiyyəti dəyişəcək. Məsələn, hazırda aşkar edilmiş yeraltı yanacaq ehtiyatlarının çoxu istifadə olunmadan buraxılmalı olacaq. Enerji təhlükəsizliyi baxımından külək, günəş, hidrogen və digər bərpaolunan enerji növləri, həm də mövcud enerji mənbələrindən daha təkmilləşdirilmiş texniki potensiala malik növlər böyük əhəmiyyət kəsb edəcək. Enerji keçidi üçün kritik materiallara sahib olan dövlətlərə geosiyasi üstünlüklər veriləcək. Məsələn, nadir yeraltı və bərpaolunan enerji istehsal edən zavodların və batareyaların istehsalı üçün digər zəruri metallarla zəngin ölkələr daha çox diqqət çəkəcək.

Eyni zamanda, növbəti enerji istehsalı sənayelərinin yeni liderləri üzə çıxacaq və onlar texnoloji cəhətdən inkişaf etmiş, iqtisadi artıma dəstək kimi yeni və müxtəlif enerji mənbələrini mənimsəmək, həmçinin cəlb etmək iqtidarında olan, ən əsası isə kor-koranə iqlim gündəliyinə uyğun hərəkət etməyən, əksinə, əsas motivləri öz maraqlarına uyğunlaşdırmaqla hərəkət edəcəklər.

Qlobal iqlim siyasəti vahid inkişaf məntiqi, ciddi oyun qaydaları, güclü ittifaqlar və daimi liderlər formalaşdırmaq baxımından, necə deyərlər, hələ çox gəncdir. Hələlik bu, bir tərəfdən, hətta ən gözlənilməz oyunçuların da sıçrayıb önə keçmək imkanı olan çevik və kifayət qədər amorf bir sistemdir, digər tərəfdən, silahlanma yarışı, mümkün sərt iqtisadi, enerji və texnoloji qarşıdurmaya hazırlığın qaçılmaz olduğu şəraitdə, ya "iqlim klubları" şəklində birləşən qruplar yaranacaq, ya da öz alternativ gündəmlərini açıq-aydın formalaşdıran Çin və ya Hindistan nümunəsində ayrı-ayrı güclü aktorlar kimi lider ölkələr önə çıxacaq. Belə bir gündəm inkişaf etməkdə olan ölkələrin hazırda möhkəmlənmiş mövqeyinə əsaslana bilər.

Gələcək qlobal iqlim siyasətinin mənzərəsi hələ də tam müəyyən edilməmişdir. Belə ki, UNFCCC Tərəflərinin Konfransı və digər beynəlxalq qarşılıqlı fəaliyyət formatları çərçivəsində ənənəvi olaraq oxşar mövqeləri müdafiə edən danışıqlar qrupları şəklində gələcək ittifaqların az-çox güclü başlanğıcları artıq mövcuddur. Onların bəziləri, məsələn, "Yeddilər qrupu", artıq vahid mövqelər formalaşdırmışlar. Digərləri isə (məsələn, neft və qaz hasil edən dövlətlər, BRİKS ölkələri və s.) oxşar çəki və təsir gücünə malik mərkəzlər yaratmaq üçün çox dağınıq ola bilərlər. Əgər belə alternativ qrupları yalnız iqlim və əlaqəli iqtisadi proseslər birləşdirərsə, ancaq siyasi ziddiyyətlər, formalaşmaqda olan dünya nizamına fərqli baxışlar, mədəni dəyərlərin yaxınlığının olmaması, hegemonluq uğrunda mübarizə, resurs münaqişələri, ərazi mübahisələri və ənənəvi olaraq mövcud olan bir çox digər məsələlər səbəbindən ayrılırlarsa , o zaman qlobal iqlim siyasətində gələcək onilliklərdə davam edən yüksək dərəcədə parçalanma ehtimalı artır.

Bütövlükdə, yeni qlobal dünya nizamı, necə olursa-olsun, "yaşıl" keçid onun tərkib hissəsi kimi qalacaq. İqlim problemlərinin birgə həlli üçün qlobal səylərin gücləndirilməsi beynəlxalq siyasi və iqtisadi münasibətlər sisteminin transformasiyasına səbəb olacaq.

Bununla belə, bəşəriyyətin qlobal iqlim arenasında yaranan qırılma xətlərini birləşdirə və aradan qaldıra, eləcə də iqlim dəyişikliyi ilə mübarizə səylərini digər eyni dərəcədə vacib və aktual bəşəri problemlərlə ahəngdar şəkildə əlaqələndirə biləcəyi hələ də qeyri-müəyyən olaraq qalır. Bir çox dövlət başçıları, siyasi, iqtisadçı ekspertlər və ekoloq alimlər ümid edirlər ki, bu ilin noyabrında Bakıda reallaşacaq COP29 sadaladığımız bir çox məsələlərə aydınlıq gətirmək üçün çox vacib platformalardan birinə çevriləcək.

*Hazırladı:*
*İlqar RÜSTƏMOV*
*XQ*

# COP29 Azərbaycan Əməliyyat Şirkəti beynəlxalq sertifikat alıb

**COP29 Azərbaycan Əməliyyat Şirkəti müstəqil nəzarət, audit, sertifikatlaşdırma və risklərin idarə olunması sahəsində ixtisaslaşmış qlobal "Bureau Veritas Certification Holding SAS" şirkətinin apardığı xarici audit prosesi nəticəsində beynəlxalq ISO 45001 idarəetmə sistemi sertifikatını əldə edib.**

Sertifikat ölkəmizdə səfərdə olan "Bureau Veritas" şirkətinin rəsmisi Nahla Abidin COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova ilə görüşü zamanı təqdim olunub.

Görüşdə tərəflər təhlükəsiz iş mühitinin qurulmasının əhəmiyyəti barədə müzakirələr aparıb. N. Abid beynəlxalq sertifikatın COP29 Azərbaycan Əməliyyat Şirkətinin dayanıqlı strateji yanaşma və əməyin mühafizəsi tədbirlərinin yüksək səviyyədə reallaşdırılmasının nəticəsi olduğunu bildirib. O, Əməliyyat Şirkətinin bu sahədə beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsinin təqdirəlayiq olduğunu qeyd edib. N. Carçalova bu nailiyyətin davamlı olaraq iş şəraitinin təkmilləşdirilməsinə və təhlükəsizliyin daha da artırılmasına töhfə verəcəyini vurğulayıb.

Qeyd edək ki, ISO 45001 standartı müəssisələrdə qəzaların qarşısının alınması, əməyin mühafizəsi və işçilər üçün təhlükəsizlik şəraitinin təmin olunması məqsədilə tətbiq



edilən qlobal səviyyəli idarəetmə sistemidir. Bu standartın məqsədi iş mühitinin sağlam və təhlükəsiz olmasını gerçəkləşdirməklə yanaşı, əməyin təhlükəsizliyini artırmaq və mümkün riskləri minimuma endirməkdir.

COP29 Azərbaycan Əməliyyat Şirkəti bu sertifikatla işçilərinin sağlamlığını və təhlükəsizliyini reallaşdırmaq məqsədilə beynəlxalq standartlara uyğun sistemlər tətbiq etdiyini bir daha təsdiqləyir.

# Bakı qlobal liderləri iqlim konfransına toplayacaq

**Bolqarıstanın sabiq prezidenti, Azərbaycanın COP29-a sədrliyi üzrə Beynəlxalq Məsləhət Şurasının üzvü Rosen Plevneliev mediaya açıqlamasında qeyd edib ki, iqlim konfransı zamanı Bakıda qlobal liderlərin bir yerə toplaşdığını görəcəyik.**

R.Plevnelievin sözlərinə görə, Azərbaycanın COP29-a evsahibliyi etməsi böyük uğurdur. Azərbaycanın planetin gələcəyinə, gənclərə və gələcək nəsillərə dair birgə razılaşmanın əldə olunmasında əsas rol oynayacağına dərin inam var.

O, Azərbaycanın COP29-a sədrliyi üzrə Beynəlxalq Məsləhət Şurasının üzvü olaraq, hazırlıqları, bütün danışıqları diqqətlə izlədiyini, iqlim konfransı ilə əlaqədar London, Almaniya və Nyu-Yorkda keçirilən görüşlərdə iştirak etdiyini bildirib. COP29 komandalarının dünyanın hər yerində böyük və kiçik ölkələrlə, zəngin və kasıb millətlərlə danışıqlar apardıqlarını diqqətə çatdıran R.Plevneliev bunun la diqqətin qlobal razılaşmalar haqqında



qərarların verilməsinə yönəldildiyini qeyd edib.

Diplomat deyib ki, Azərbaycan bu gün mühüm qərarlara imza atır və önəmli təşəbbüslər irəli sürür: "Azərbaycan güclü mövqeyə malikdir, çünki o, ötən illər özündə 120 ölkəni birləşdirən BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına rəhbərlik edib. Bundan başqa, Azərbaycan masaya bütün ölkələr tərəfindən dəstəklənə biləcək yeni ideyalar gətirib. Məsələn, yeni idarəetmə və şəffaflıq üsulu ilə yardıma ehtiyacı olanlara kömək edəcək fond ideyası Azərbaycana məxsusdur. Hər kəs yenidən Azərbaycanın gücünü görəcək. Söhbət yalnız maliyyə məsələlərinə yönələn bir COP-dan getmir. Azərbaycanın vurğulayacağı ən vacib məsələ ondan ibarətdir ki, bütün dünya ölkələri qlobal istiləşmənin qarşısını necə alacaqlarına dair öz milli hədəflərini təqdim etməlidirlər".

# İstiləşmə təhlükəsi həmrəyliyə çağırır

**Böyük Britaniyanın ölkəmizdəki səfiri Ferqus Auld ADA Universitetində "Karbon emissiyalarının azaldılması və bazar mexanizmləri" mövzusunda keçirilən "dəyirmi masa"da BMT-nin iqlim konfransında Paris Sazişinin 6-cı maddəsinin texniki komponentinin tamamlanacağını bildirib.**

"COP29-da biz 6-cı maddə üzrə bəzi texniki məsələləri yekunlaşdırmalıyıq və mən yeni sədr kimi Azərbaycan danışıqların erkən mərhələsində bu sahədə irəliyə doğru mühüm addım atmaqda hamımıza dəstəyin lazım olması ilə razılaşdığına görə təşəkkür edirəm", – deyə diplomat bildirib.



Səfir vurğulayıb ki, bazar və maliyyə sahəsi üzrə mütəxəssis olmasa da, 18 ildir ki, mütəmadi olaraq karbon bazarını izləyir. Gəldiyi qənaət isə belədir: Bazar mexanizmlərinin əsas prinsipi iqlim böhranının qarşısını almaq üçün qlobal miqyasda ehtiyac duyulan layihələrə səmərəli və genişmiqyaslı iqlim maliyyəsi axını təmin edilməli, karbona qiymət qoymaq isə iqlim dəyişikliyi ilə mübarizənin əsas elementinə çevrilməlidir.

"Bu, emissiyaların azaldılması və özəl sektorun səfərbər edilməsi üçün iqtisadi cəhətdən səmərəli üsuldur. 2030-cu ilə qədər karbon bazarlarının həcmi ildə bir neçə milyard funt sterlinq, növbəti onilliklərdə isə daha çox ola bilər", – F.Auld qeyd edib.

Belə mövzularla bağlı müzakirələrin aparılmasına görə Azərbaycana təşəkkürünü bildirən diplomat bunun nəticəsində dünya ictimaiyyətinin məlumatlılıq səviyyəsinin artdığını, xalis sıfır emissiyaya keçid üçün karbon bazarlarının potensialından necə istifadə edilə biləcəyi ilə bağlı bir sıra maraqlı təkliflərə yol açılacağına ümid bəslədiyini vurğulayıb.

# Azərbaycan təmiz texnologiyalar poliqonudur

**Amerikalı politoloq və beynəlxalq münasibətlər üzrə ekspert Piter Teys mediaya açıqlamasında ABŞ və Fransanın ekoloji gündəliyin həyata keçirilməsi ilə bağlı Azərbaycana və digər ölkələrə təzyiq göstərməyə heç bir haqqı olmadığını bildirib. Ekspert, eyni zamanda, Azərbaycanın qabaqcıl tədqiqatlara əsaslanaraq "yaşıl texnologiya"ların inkişafına və ətraf mühitin yaxşılaşdırılmasına mühüm töhfə verdiyini qeyd edib.**

P.Teys vurğulayıb ki, Qərb dövlətlərinin hücumlarına və tənqidlərinə baxmayaraq, Azərbaycan beynəlxalq aləmdə mövqeyini möhkəmləndirməkdə davam edir. Onun sözlərinə görə, COP29, hətta Qərb siyasətçilərinin, o cümlədən ABŞ Dövlət Departamentinə müraciət göndərən 60 ermənipərəst konqresmenin bu hadisəni və Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi töhfəni ləkələmək cəhdləri qarşısında mühüm qlobal hadisə olacaq.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*

# Xarici sərmayəçilərə Qarabağ güzəştləri

(əvvəli 1-ci səhifədə)

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının investisiya cəlbediciliyini artırmaq məqsədilə 2023-cü il yanvarın 1-dən 10 il müddətinə gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilər üzrə güzəştlər təqdim edilib: "Azərbaycanda formalaşan əlverişli biznes mühiti və xarici investorlar üçün yaradılan cəlbedici imkanlar, habelə tətbiq edilən vergi və gömrük güzəştləri xarici sərmayədarların ölkəmizə marağını davamlı olaraq artırır. Bərpaolunan enerji, sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat və logistika, rəqəmsallaşma kimi bir çox sahələrdə xarici investorlarla uğurlu birgə layihələr həyata keçirilir".

Nazir müavini əlavə edib ki, ölkəmizin artan nəqliyyat–tranzit imkanları və bu sahədə həyata keçirilən regional və beynəlxalq layihələr, xüsusilə Orta Dəhlizin inkişafı ilə əlaqədar təklif olunan əməkdaşlıq potensialı, Bakı Dəniz Ticarət Limanı, eləcə də Bakı–Tbilisi–Qars dəmir yolu kimi layihələr yeni perspektivlər yaradır. 2022–2026-cı illər üzrə sosial–iqtisadi inkişaf strategiyasında Azərbaycanın regional tranzit habına çevrilməsi, həmçinin yükdaşıma və logistika əməliyyatlarının genişləndirilməsi əsas hədəflərdən biridir ki, bu da əməkdaşlıq imkanlarını daha da genişləndirəcək.

A.Axundov əlavə edib ki, Ələt Azad İqtisadi Zonasının genişləndirilməsi üçün bu layihədə investorların iştirakına xüsusi önəm verilir. Bu məqsədlə yüksək əlavə dəyər yaradan, ixracyönümlü məhsul və xidmətlərin istehsalını artırmağa və Azərbaycanın tranzit potensialını genişləndirməyə yönələn addımlar atılır. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti Azərbaycanda 240 meqavat elektrik enerjisi istehsal gücünə malik külək elektrik stansiyasının yaradılmasına 290 milyon dollar sərmayə qoyub, həmin enerji infrastrukturunun 2025-ci ildə istismara verilməsi planlaşdırılıb. Birləşmiş Ərəb Əmirliklərinə məxsus Masdar" şirkətinin isə 262 milyon dollarlıq sərmayəsi ilə tikilən və ölkəmizdə regionun ən böyük günəş elektrik stansiyası olan 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyası istifadəyə verilib.

A.Axundov sonda bildirib ki, Azərbaycan hazırda quruda külək enerjisi layihələrini reallaşdırır və bu ilin yanvar ayında Prezident İlham Əliyev ilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan arasında keçirilən görüş çərçivəsində "yaşıl" enerjinin ixracına imkan verən strateji əməkdaşlıq üzrə Çərçivə Müqaviləsinin imzalanması, habelə quruda günəş və külək layihələrinin icrası üçün razılaşma əldə olunması məhz bunun parlaq ifadəsidir. Bu sazişlər və layihələr ölkəmizin bərpaolunan enerji potensialından səmərəli istifadəsinə xidmət edir və qurulan tərəfdaşlıqların dayanıqlıq və ekoloji cəhətdən məsuliyyətli təcrübələrə uyğun olduğunu əks etdirir.

Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin sentyabrın 23-də keçirilən ilk iclasında Prezident İlham Əliyev çıxış edərək Qarabağ və Şərqi Zəngəzurun bərpasının prioritet istiqamət olduğunu, beləliklə, respublikamızın genişmiqyaslı quruculuq, inkişaf mərhələsinə qədəm qoyduğunu bildirib.

Dövlətimizin başçısı sözügedən nitqində vurğulayıb ki, bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası bizim hər birimizin önəmli vəzifəsidir. İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra bu istiqamətdə genişmiqyaslı tikinti-quruculuq və abadlıq işlərinə başlanılması, bununla bağlı qısa bir zaman ərzində möhtəşəm nəticələr əldə olunması bunun parlaq ifadəsidir.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsi başa çatandan bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manat təşkil edib. Onun əksər hissəsi infrastruktur layihələrinə xərclənib. Keçmiş məcburi köçkünlərin məskunlaşdırılması istiqamətində genişmiqyaslı layihələrin gerçəkləşdirilməsi nəticəsində 8 mindən çox insan Qarabağ və Şərqi Zəngəzura, doğma yurd yerlərinə qovuşub.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri sürətlə həyata keçirilib, 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələr sırasında 70 kilometr uzunluğunda 45 tunel və 450 körpünün çətin relyef şəraitində inşası nəzərdə tutulub. Dəmir yolları, 2 beynəlxalq hava limanı istifadəyə verilib. Enerji potensialının gücləndirilməsi diqqətdə saxlanılıb və 3 il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları işə salınıb.



İşğaldan azad edilən ərazilərdə yaşayış sahələrinin salınması sürətlə həyata keçirilir, məktəblər, xəstəxanalar, sosial obyektlər tikilir və bütün bu tikinti-quruculuq işləri keçmiş məcburi köçkünlərin ləyaqətli şəkildə məskunlaşdırılmasına xidmət edir.

Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Prezident İlham Əliyevin çıxışlarının birində bununla bağlı söylədiyi fikir diiqqət çəkir: "Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, –həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə".

Dövlətimizin başçısı sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki çıxışında da son illər ərzində Bakı və Sumqayıt şəhərlərində olduğu kimi, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında da yeni sənaye parklarının yaradıldığını diqqətə çatdırıb.

Ölkə rəhbəri və birinci xanım Mehriban Əliyevanın oktyabrın 3-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirakları zamanı bunun bir daha şahidi olduq. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma sənaye parkında görülən işlər barədə məlumat verərək qeyd etdi ki, ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektoru, xüsusilə də qeyri-neft sənayesidir. Bu sahənin sürətli inkişafı yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin – sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması və fəaliyyətinin genişləndirilməsində özünü qabarıq büruzə verir.

Bildirildi ki, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, yeni əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investorların marağını artırır.

Cəbrayıl rayonunun Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye parkının əsas fəaliyyət istiqaməti kimi Parkda logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır.

Yeri gəlmişkən, "Araz Vadisi İqtisadi Zonası"nda, eləcə də digər sənaye parklarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlərin tətbiqinə başlanılıb. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla – qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma (müəyyən edilmiş siyahıya əsasən) aiddir.

Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 73 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 6,8 milyard manat investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 1 milyard manata yaxın investisiyanın yatırılması, 7100-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

# Türk dövlətlərində yarımillik ÜDM 900 milyard dolları ötüb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzi "Türk iqtisadi icmalı"nın növbəti sayını təqdim edib.**

Mərkəzdən bildirilib ki, 2024-cü ilin yanvar-iyun aylarını əhatə edən hesabatda Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi ölkələrinə dair məlumatlar əks olunub. Bülletendə iqtisadi artım, sənaye və kənd təsərrüfatı, investisiyalar, dövlət büdcəsi, bank aktivləri və ticarət dinamikasına dair statistik göstəricilər verilib.




Cari ilin birinci yarısında Türk dövlətlərinin ÜDM-I, təxminən, 900,4 milyard dollar təşkil edib ki, bu da həmin dövr üzrə 54 trilyon dollar həcmində proqnozlaşdırılan qlobal ümumi daxili məhsul həcminin 1,7 faizini təşkil edir. Türk dövlətlərinin orta ÜDM artım sürəti 5,98 faiz olub ki, dünya üzrə bu göstərici 3,1 faiz təşkil edib. Türk dövlətlərinin iqtisadi artım tempi orta qlobal göstərici ilə müqayisədə təxminən 2 dəfə yüksəkdir, bu da onların sürətli inkişafını və iqtisadi blok kimi mövqeyinin gücləndiyini göstərir.

Türkdilli dövlətlər arasında ÜDM artımının yüksək tempinə görə, Türkiyə 13,67 faiz ilə öndədir və 594,9 milyard dollar ÜDM həcmi ilə TDT ölkələri arasında ən böyük iqtisadiyyata sahibdir. Qırğızıstan 8,1 faiz, Özbəkistan 6,4 faiz, Qazaxıstan və Azərbaycan isə müvafiq olaraq 4,1 faiz və 4,3 faiz artımla sabit inkişaf nümayiş etdirir.

Sənaye istehsalı artımında Özbəkistan 7,8 faiz ilə öndədir. Qazaxıstan 2,9 faiz, Azərbaycan və Qırğızıstan isə müvafiq olaraq 0,9 faiz və 1 faiz artım göstərib. Türkiyə isə sənayedə 1,55 faiz azalıb, lakin bu sektor yenə də 123,5 milyard dollar ilə əhəmiyyətli həcmə malikdir. Kənd təsərrüfatı sahəsində Özbəkistan 3,8 faiz artımla önə çıxıb, Qazaxıstan 3,7 faiz, Qırğızıstan 3,3 faiz, Azərbaycan 0,3 faiz artım nümayiş etdirib.

Hesabat dövründə Türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 508,8 milyard dollar olub ki, bu da həmin dövr üzrə 16 trilyon dollar həcmində proqnozlaşdırılan dünya ticarət dövriyyəsinin 3,18 faizini təşkil edir. Sürətli iqtisadi artım və genişlənməkdə olan ticarət əməliyyatları gələcəkdə Türk dövlətlərinin qlobal bazarda mövqeyini daha da gücləndirəcək.

İnvestisiya artımı üzrə Qırğızıstan 60,5 faiz ilə ən yüksək nəticəni göstərir. Özbəkistan və Türkiyə müvafiq olaraq 36,6 faiz və 12,37 faiz artım nümayiş etdirir. Azərbaycanın investisiya artımı 9,4 faiz olub. Qırğızıstan bank sektorunda 31,7 faiz artımla önə çıxır, Özbəkistan 20 faiz, Türkiyə isə 16,57 faiz artım göstərir. Azərbaycanın bank aktivləri 2,3 faiz artıb.

Türkiyə və Azərbaycan büdcə gəlirlərində müvafiq olaraq 26,34 faiz və 21,7 faiz artım nümayiş etdirir, lakin Türkiyə büdcə xərclərində 20,11 faiz yüksək artım göstərir. Qazaxıstan büdcə gəlirlərində və xərclərində 4 faiz artım nümayiş etdirərək sabit maliyyə idarəçiliyini nümayiş etdirir. Özbəkistan büdcə gəlirlərində 18,3 faiz, xərclərində isə nisbətən daha mülayim artım nümayiş etdirib. Qırğızıstanda büdcə gəlirləri 24,7 faiz artıb, lakin xərclər cəmi 6 faiz artımla məhdudlaşıb, bu da ölkədə ehtiyatlı büdcə siyasətinin göstəricisidir.

# Bakıda Halal Biznes və Turizm Forumu

**İqtisadiyyat Nazirliyi, nazirlik yanında kiçik və orta biznesin inkişafı və turizm agentliklərinin təşkilatçılığı ilə ilk dəfə keçirilən, bu gün isə başa çatacaq Halal Biznes və Turizm Forumun məqsədi investisiya və ticarət sahəsində yeni əməkdaşlıqların qurulmasına, müvafiq sahədə təcrübə mübadiləsinə töhfə verməkdir, respublikamıza xarici sərmayələrin cəlb edilməsini təşviq etməkdir.**

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov forumda çıxış edərək bildirib ki, bu gün istehsalçı və ticarətçilər üçün qida məhsullarının təhlükəsizliyi, istehlakçılara keyfiyyətli ərzaq məhsullarının çatdırılması ən mühüm öhdəlikdir. Bu baxımdan kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, eləcə də ticarəti ilə məşğul olan təsərrüfat subyektlərinin üzərinə böyük məsuliyyət düşür. Əhalinin artan qida ehtiyaclarının qarşılanması, ixrac olunan məhsulların çeşidinin və həcminin artırılması cəlbediciliyinin daha da artdığını vurğulayıb, son zamanlar müsəlman ölkələrindən çoxsaylı turist axınının halal qida sektorunun inkişafını və halal turizm standartlarının tətbiqini zəruri etdiyini diqqətə çatdırıb.

M.Məmmədov daha sonra deyib: "Halal standartları əsasında emal prosesinin təşkili dəyər zəncirini formalaşdırmaqla fermer və sahibkarların gəlirlərini artıracaq, kənd təsərrüfatı məhsullarına olan tələbatı yüksəldəcək, maliyyə bazarlarını



üçün aqrar və emal sənayelərində məhsuldarlığın, keyfiyyətin artırılması zəruri tələblərdən birinə çevrilib.

Zəngin mədəni irsə və çoxəsrlik İslam sivilizasiya tarixinə sahib Azərbaycanın regionda halal sənayenin daha da inkişafı üçün böyük potensiala malik olduğunu vurğulayan nazir əlverişli coğrafi mövqedə yerləşən respublikamızda beynəlxalq mötəbər tədbirlərin keçirilməsi, nəhəng transmilli nəqliyyat layihələrinin icrası nəticəsində ölkəmizin turizm məkanı kimi canlandıracaq, ixrac potensialını daha da artıracaq. Bu sahədə dayanıqlı inkişafa nail olmaq üçün dünyada mövcud olan trendlər dəyərləndirilməli, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı günümüzün çağırışlarına uyğun qurulmalıdır. Kənd təsərrüfatında yüksək məhsuldarlıq və keyfiyyətli məhsul yetişdirmək üçün tarladan süfrəyədək hər bir addıma xüsusi diqqət və innovativ yanaşma təbiqi zəruridir. Bu baxımdan göstərilən hədəflərə nail olmaqda əsas ağırlıq özəl sektorun üzərinə düşür".

# "Şahdəniz" yatağı ölkəmizə 364,5 milyon dollar gəlir verib

**Azərbaycan Respublikası Dövlət Neft Fondu cari ilin əvvəlindən oktyabrın 1-dək "Şahdəniz" yatağından (qaz və kondensat) 364,465 milyon dollar gəlir əldə edib.**



Qeyd edək ki, Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı 1999-cu ildə kəşf olunub. Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50–500 metr arasında dəyişdiyi Xəzər dənizinin şelfində yerləşir. Bu yataq dünyanın iri qaz-kondensat yataqlarından biridir. 1999-cu ilin iyununda ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensatdan ibarət olan bu nəhəng yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin uğurla həyata keçirilməsi Azərbaycanı dünyaya qaz ixrac edən ölkə kimi tanıdıb.

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş 4 iyun 1996-cı ildə imzalanaraq, həmin ilin oktyabr ayının 17-də qüvvəyə minib. BP şirkəti "Şahdəniz" Birgə Müəssisəsinin operatorudur.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

X Bakı Beynəlxalq Kitab Sərgisi

# Naşirlər getdilər, kitablar isə oxucularla qaldı



(əvvəli 1-ci səhifədə)

Bayram çərçivəsində, həmçinin uşaqlar və böyüklər üçün ustad dərsləri, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları da təşkil olunub.

Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə görkəmli qazax alimi, akademik Darxan Kidralinin "Daşa yazılan tarix", dahi türkmən şairi Məhdimqulu Fəraqinin "Aşiq olmuşam" kitablarının təqdimatı olub. Mərasimlərdə Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Mətbuat Şurasının sədri Rəşad Məcid, Türkmənistanın ölkəmizdəki səfiri Qurbanməmmet Elyasov, alimlər Firuzə Ağayeva, İsmixan Osmanlı və digər natiqlər bu cür nəşrləri ümumilikdə türk xalqlarının birgə tarixi və ədəbi keçmişinin öyrənilməsi üçün əhəmiyyətli mənbə kimi dəyərləndiriblər.

Dövlət Tərcümə Mərkəzi və Rusiya Tərcümə İnstitutunun birgə əməkdaşlığı ilə Rusiyada nəşr olunmuş "Qətl günü" (Yusif Səmədoğlu), "Beş dəqiqə və ədəbiyyat" (Elçin) və "Əfsanənin ikinci həyatı" (Elvira Araslı) kitablarının təqdimatı da maraq doğurub. Mərasimdə çıxış edən Mərkəzin ədəbi əlaqələr üzrə koordinatoru Püstə Axundova, Rusiya Tərcümə İnstitutunun direktoru, tanınmış şair Yevgeni Rezniçenko, tərcüməçilər Etimad Başkeçid, Mahir Qarayev və İmir Məmmədli, professor Telman Cəfərov və başqaları Rusiyada işıq üzü görmüş kitabların mövzu aktuallığı, bədii məziyyətləri haqqında fikirlərini bölüşüblər.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Hikmət Barutçugilin Ebru sənəti mövzusunda ustad dərsində əvvəlcə videoçarx göstərilib. Sonra Məhəmməd Füzulinin "Su qəsidəsi" əsərini Ebru sənətində canlandırmış ustad Hikmət Barutçugil bu yaradıcı sahənin özəlliklərini izah edib. İştirakçılar gənc nəsil arasında bu sənətin tanıdılması və yayılması üçün gözəl imkanların olduğunu bildiriblər.

Milli Aviasiya Akademiyası tərəfindən isə "Füzulinin söz dünyası" mövzusunda açıq dərs təşkil olunub. Akademiyanın müəllimi pedaqoji elmlər üzrə fəlsəfə doktoru Zəminə Abdullayeva şairin əsərləri əsasında onun sevgi, hikmət, ilahi məhəbbət mövzularına yanaşmasını ətraflı təhlil edib. Tələbələr və mütəxəssislər Füzulinin poetik dili, fəlsəfi düşüncəsi, onun klassik Şərq ədəbiyyatında yeri barədə fikirlərini bölüşüblər. Şairin yaradıcılığına həsr edilmiş videoçarx da izlənilib. Videoçarxda ulu öndər Heydər Əliyevin Məhəmməd Füzuli haqqında çıxışından kadrlar da yer alıb.

AYB-nin katibi, şair-tərcüməçi Səlim Babullaoğlu oxucularla görüşündə şeirlərini söyləyib, fikir mübadiləsi aparıb. Eləcə də Cavid Zeynallının, Fəxri Ağayevin kitablarının təqdimatı olub. Qeyd edilib ki, sərgi çərçivəsində keçirilən bu cür görüşlər oxucuların yazarlarla birbaşa ünsiyyət qurmasına, ədəbi mühitlə daha yaxın tanış olmasına şərait yaradır.

**Sərgidə təqdimatı keçirilən "Ən böyük dissident elə mən özüm olmuşam! Heydər Əliyev və yaradıcı ziyalılar" ikicildliyinin müəllifi Xalq yazıçısı Elmira Axundova deyib:**

– Çalışacağam ki, bu kitabın ardı da gəlsin, işim çoxşaxəli olsun. Məsələn, "Heydər Əliyev və cavanlar", "Heydər Əliyev və həyat yoldaşı", "Heydər Əliyev və ziyalılar". Bunların hamısı çox maraqlıdır. Buna görə də onları çap etməyə davam edəcəyəm. Həmçinin indi kitablarım xarici dillərdə də çap edilir. Bu kimi sərgilər, görüşlər hamısı olduqca əhəmiyyətli işlərdir.

Sərginin son günü Mədəniyyət Nazirliyinin dəstəyi ilə şərqşünas Cəfər Həsənovun "Seyid Yəhya Bakuvi. Əsraru Talibin və ya həqiqət yolçularının sirləri" kitabının təqdimat mərasimində alimlər, ədəbiyyatçılar, oxucular, jurnalistlər və s. iştirak ediblər. Kitabın müəllifi əsərin yazılma prosesindən, S.Y.Bakuvi irsinin Azərbaycan mədəniyyətindəki əhəmiyyətindən söz açıb.

Xalq şairi Ramiz Rövşənin "Nəfəs" kitabının, Şuşaya aid virtual sərgilərin təqdimatı hər kəsin ürəyindən xəbər verib.

Minlərlə oxucu sərgi kampaniyalarından yararlanaraq, çoxsaylı yeni və dəyərli kitab alıb.

*

Dünən axşam sərginin bağlanış və mükafatlandırma mərasimi keçirilib. Mərasimdə çıxış edən Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli 10-cu Bakı Kitab Sərgisində, ümumilikdə, 327 tədbirin keçirildiyini, həmçinin bir çox dünyaşöhrətli yazarların kitab təqdimatlarının və oxucularla görüşlərinin təşkil olunduğunu bildirib. O, ötən illə müqayisədə builki sərgidə yeni naşirlərin də iştirak etdiyini diqqətə çatdırıb.

Sonra mükafatlandırma mərasimi keçirilib. "Ən yaxşı kitab" nominasiyası üzrə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Füzuli Kitabxanası" seriyası, "Ən kreativ stend tərtibatı" nominasiyası üzrə Təhsil Nəşriyyat-Poliqrafiya MMC, "Everest" və "Çinar" nəşriyyatlarının stendi, "Ən çox oxunan uşaq yazarı" nominasiyası üzrə Bəhram Bağırzadə, "Ən çox oxunan müəllif" nominasiyası üzrə Elxan Elatlı, "Ən fəal nəşriyyat" nominasiyası üzrə isə "Qanun" və "TEAS Press" nəşriyyatları qalib elan edilib. Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) və İctimai Televiziya və Radio Yayımları Şirkətinə "Media tərəfdaşı" sertifikatları təqdim olunub.

***Ə.DOSTƏLİ***
***XQ***

# Xarici kitabxana rəhbərləri Ədəbiyyat Muzeyində

**Bu günlərdə Bakıda keçirilən Beynəlxalq Kitab Sərgisində iştirak etmək üçün ölkəmizə gələn Gürcüstan Milli Parlament Kitabxanasının baş direktoru, professor Konstantin Qamsaxurdiya və Macarıstanın Seçenyi adına Milli Kitabxanasının baş direktor müavini Yudit Gerenser Milli Azərbaycan Ədəbiyyatı Muzeyində olublar.**



Muzeyin ekspozisiyası ilə tanış olaraq heyranlıqlarını ifadə edən qonaqlar daha sonra Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovla görüşüblər.

Bakıda keçirilən Beynəlxalq Kitab Sərgisi kimi mötəbər tədbirlərin həm ədəbiyyatlar, mədəniyyətlər, həm də xalqlar və ölkələr arasında əlaqələrin inkişafına müsbət təsir göstərdiyini vurğulayan Rafael Hüseynov Azərbaycanın istər Gürcüstan, istərsə də Macarıstanla mövcud olan xoş münasibət və iş birliyinin belə tədbirlərin yaratdığı yaxınlaşmalar nəticəsində yeni impuls qazandığını söyləyib.

Həm Macarıstanın Seçenyi adına Milli Kitabxanasının Baş direktor müavini Yudit Gerenser, həm də Gürcüstan Milli Parlament Kitabxanasının baş direktoru, professor Konstantin Qamsaxurdiya Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ilə davamlı əlaqələrdə maraqlı olduqlarını bildiriblər və gələcək əməkdaşlığın perspektivləri, müştərək layihələr haqqında fikir mübadiləsi aparıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Qarabağ Universiteti, üstəgəl, Prezident təqaüdü

**"Prezident təqaüdçüsü olmağımla bağlı ilk məlumatı mənə ailə üzvlərim verdi. Bu xəbəri eşidəndə çox sevindim, təəssüratlarımı dostlarımla bölüşdüm. Bu xəbər Qarabağ Universitetinə qəbul olunmağımdan sonra ikinci uğurumdur. Buna görə çox qürurluyam".**



Bu fikirləri "XQ"yə müsahibəsində Qarabağ Universitetinin tələbəsi, Prezident təqaüdçüsü Zenfira Nəsirova bildirdi. 684 balla Qarabağ Universitetinin hüquqşünaslıq ixtisasında təhsil alan Zenfira qeyd etdi ki, Xankəndi şəhərində yaşamaq və burada təhsil almaq olduqca xoşdur: "Hazırda tədris ilinin 3-cü həftəsidir. Dərslərimiz ənənəvi qaydadan fərqli olaraq, mühazirə və məşğələ şəklində keçirilmir. Tədris prosesi müzakirə, debat və sual-cavab üzərində interaktiv formatda qurulub. Müəllimlərimiz bilikləri, akademik məlumatları bizə ən asan üsullarla öyrətməyə çalışırlar. Biz də göstərilən diqqətə cavab olaraq yüksək nəticələr qazanmaq istəyirik. Qarabağ Universitetinə daxil olmuş tələbələr arasında ən yüksək balı mən toplamışam, Prezident təqaüdünə layiq görülən yeganə tələbəyəm və bunlar da məsuliyyətimi ikiqat artırır."

Zenfira orta məktəbdə də bir çox nailiyyət əldə edib. Salyan şəhər Aşıq Pənah adına 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseydə oxuyarkən respublika fənn olimpiadasında Azərbaycan dili və ədəbiyyat üzrə gümüş medal qazanıb. Bununla yanaşı, 11-ci sinfi qızıl nişan və fərqlənmə attestatı ilə başa vurub.

Tələbə Qarabağ Universitetində yaradılan şəraitdən yararlanaraq yüksək ixtisaslı hüquqşünas olmağı qarşıya məqsəd qoyub.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Elm adamları

# Qubanın Miçurini

## *Şair təbiətli bioloq yaşıl misralarını torpağa yazır*

**Quba respublikamızın əsrarəngiz təbiəti, ecazkar coğrafi mövqeyi, yerüstü və yeraltı sərvətləri, vətənpərvər və işgüzar zəhmət adamları ilə seçilən, eyni zamanda, alim və mütəfəkkirlərin yaradıcı əməyindən qaynaqlanan mədəniyyət və təfəkkür mərkəzlərindən biridir.**



Tanrının Quba təbiətinə əta etdiyi gözəllikləri, dağın-dərənin əbədi melodiyasını, bağın-bağatın məlhəm və məhrəm pıçıltılarını öz elmi və bədii yaradıcılığında yaşadan ziyalılarımızdan biri də biologiya elmləri namizədi Mədət Qurbanovdur. Ulu təbiət elminin mükəmməlliyindən bəhrələnərək öz fəaliyyətində müasir təsərrüfatçılıq metodlarının tətbiqinə geniş yer verən, bağbanlara, fermerlərə və aqronomlara yardımçı olan Mədət Qurbanov. Onun keçdiyi həyat yoluna nəzər salsaq, görərik ki, nəinki Qubada, digər bölgələrdə də yaradıcı fəaliyyəti ilə böyük hörmət-izzət qazanıb.

Mədət müəllimlə ilk tanışlığım vaxtilə çalışdığı Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda olub. Onunla ixtilatımız yaxşı tutur, şirin söhbətlərimiz zamanı birimiz fəlsəfi, digərimiz də poetik fikirlərimizi alma kimi bölüşürük. Səadət, mənalı həyat rəmzi sayılan almalara həsr etdiyim "Almalı kitab"ımdan misraları səsləndirirəm:

***Mən aşiq qızıl alma,***
***Yollara düzül, alma.***
***Bilsəm ki, yar göndərib,***
***Saxlaram yüz il, alma…***

O da meyvələri tumlu, çəyirdəkli, gərzəkli, subtropik və sitrus növlərinə bölərək, bunların torpaq-iqlim şəraitinə uyğunlaşma dərəcələrindən elə bilgilər verir ki, adam mat qalır.

Mədət müəllim Miçurin kimi xalqına xidmət etmək arzusu ilə daxil olduğu Azərbaycan Dövlət Universitetinin (indiki BDU) biologiya fakültəsini 1978-ci ildə bitirib. Sonra keçmiş SSRİ-nin Leninqrad (indiki Sankt-Peterburq) şəhərində yerləşən Ümumittifaq Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitutunun məqsədli aspiranturasına daxil olub, 1987-ci ildə "Azərbaycan SSR-də tumlu meyvə bitkilərinin qurumadan mühafizəsinin bioloji əsaslandırılması" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək "Bitkilərin zərərverici və xəstəliklərdən mühafizəsi" ixtisası üzrə biologiya elmləri namizədi alimlik dərəcəsi alıb.

Mədət müəllim elmi fəaliyyətini Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutundan sonra Quba Regional Aqrar Elm İnformasiya və Məsləhət Mərkəzində (RAEİM) davam etdirib, bu gün də bilik və bacarığını bu müəssisədə uğurla tətbiq edir. Bu rayonun aqrar sahəda uğurlarında, təbii ki, Mədət Qurbanovun da xidmətləri az deyil.

Ölkəmizdə son vaxtlarda aqrar sektorda innovativ həllərin tətbiqinə geniş meydan verilməsi, həm bitkiçilik, həm də heyvandarlıq sahələrində müasir təsərrüfatların yaradılması, ərzaq tələbatının sırf yerli istehsal hesabına qarşılanması və xarici bazarlara daha çox kənd təsərrüfatı məhsullarının çıxarılması sahəsində Quba RAEİM-in fəaliyyətindən, o cümlədən Mədət müəllim kimi mütəxəssislərin əməli təcrübəsindən geniş istifadə olunur.

Mədət Qurbanov uzun illər meyvəçiliyin inkişafı sahəsində aktual mövzular üzərində işləyib. O, meyvə sortları ilə bağlı aqrar sahədə həyata keçirilən uğurlu layihələrin, önəmli proqramların hazırlanıb reallaşdırılmasında, bu yöndə müşavirə və təlimlərdə fəal iştirak edib. Alim ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının tərəqqisinə xidmət edən elmi töhfələri ilə öz tərcümeyi-halını zənginləşdirib.

Mədət Qurbanovun tingçiliyin elmi əsaslarla yenidən qurulması və müasir texnologiya üzrə intensiv və super intensiv tipli meyvə bağlarının salınması istiqamətindəki məqsədyönlü fəaliyyəti təqdirəlayiqdir və müasir gənc kadrlar üçün örnək sayıla biləcək qədər əhəmiyyətlidir.

Ömrünün ən işgüzar illərini ölkə iqtisadiyyatının çiçəklənməsinə sərf edən Mədət müəllimin doğma Qubamızın qədirbilən insanları, iş yoldaşları, rayona gələn qonaqlar, layihə, tədbir və müşavirə iştirakçıları ilə səmimi davranışı, isti münasibəti bir ayrı yazının mövzusudur. Bircə onu demək kifayətdir ki, Mədət Qurbanov öz-özlüyündə bir ünsiyyət, sadəlik, insaniyyət və vətənpərvərlik məktəbidir. Onunla hər görüşümüzdə bu dəyərlərin şahidi olmuşam. Qürur duymuşam ki, rayonumuzda belə bir ləyaqətli, alicənab alim yaşayır və biz də bu elm adamı ilə bir məkanı və zamanı bölüşürük.

Torpağın sevincini gül-çiçəyin gülüşü ilə, ağrısını alim qələminin mürəkkəbi ilə yaşayır insan. Bir şeirimdə dediyim kimi:

***Uğunar budaqda tumurcuq çatlar,***
***Qönçələr dartınıb qınından çıxar.***
***Cücərən toxumla, uzanan otla***
***Torpağın ağrısı canından çıxar.***

Öz səmərəli elmi fəaliyyəti ilə torpağın ağrısını canından çıxaran alim dostumuz Mədət Qurbanovu anadan olmasının 70 illiyi münasibətilə səmimi təbrik edir, əziz dostumuza yeni uğurlar diləyirik!

***Ramiz QUSARÇAYLI,***
***şair, AYB Quba bölməsinin sədri***

# Şair-publisistin yubiley məclisi

**Xəbər verdiyimiz kimi, oktyabrın 8-də tanınmış şair, alim, tərcüməçi və publisist, Əməkdar jurnalist Adil Cəmilin 70 yaşı tamam olub. Bu münasibətlə Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan Klubunda yubiley məclisi keçirilib.**



Görkəmli ədəbiyyatşünas, akademik Nizami Cəfərov məclisi açaraq Adil Cəmilin həyat və yaradıcılığı barədə məlumat verib. AYB-nin sədri, Xalq yazıçısı Anar, Xalq şairləri Sabir Rüstəmxanlı və Vahid Əziz, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, akademik Muxtar İmanov, filologiya elmləri doktoru Vaqif Yusifli və başqaları çıxışlarında Adil Cəmilin elmi və bədii yaradıcılığının məziyyətlərindən danışıb, yubilyara yeni uğurlar arzulayıblar.

Məclisdə Adil Cəmilə Azərbaycan Yazıçılar Birliyinin və Mətbuat Şurasının yubiley diplomları təqdim olunub.

***XQ***

*Beynəlxalq həyat*

# Rusiya–NATO qarşıdurması kəskinləşir



**(əvvəli 1-ci səhifədə)**

Budur, Rusiya öz opponentlərini əmin edir ki, ölkənin təhlükəsizliyini bütün mümkün vasitələrlə təmin etməyə hazırdır və heç kimdə illüziyalar yaranmasın. Moskva onu da bəyan edir ki, nüvə təhdidlərinin qarşısını almaq üzrə dövlət siyasətini yeniləyir. Bu barədə "RİA Novosti"yə müsahibəsində xarici işlər nazirinin müavini Aleksandr Qruşko danışıb.

O qeyd edib ki, "konseptual, siyasi və hərbi-texniki mənada nüvə silahına malik NATO ölkələri, eləcə də özünü nüvə bloku elan etmiş alyans strategiyasında nüvə silahının rolunu artırmağa doğru gedir". Bu isə bir daha təsdiq edir ki, qarşıdurma yolunu tutan Rusiya deyil, Şimali Atlantika Alyansıdır: "Üstəlik, NATO indi Rusiya ilə potensial silahlı toqquşmaya hazırlaşdıqlarını gizlətmir. Rusiyaya qarşı hərbi əməliyyatların mümkün variantları üzərində daim işlənilir. Qoşunların və silahların Atlantik okeanı üzərindən "şərq cinahına" ötürülməsi üçün logistik marşrutlar sınaqdan keçirilir. Hərbi büdcələr artırılır, iqtisadiyyat hərbiləşdirilir".

Bununla belə, Rusiya diplomatı ölkəsi ilə NATO arasında gərginliyi azaltmaq üçün açıq dialoqun davam etdiyini bildirib. Onun sözlərinə görə, qaynar xətlər və təcili əlaqə üçün imkanlar var, Rusiya və ABŞ müdafiə nazirləri səviyyəsində dialoq davam edir.

Qruşko hesab edir ki, bununla bərabər, Rusiya ilə NATO arasında hərbi toqquşma riskləri artmaqdadır: "NATO bizə qarşı hibrid müharibə aparır. Alyans ölkələri Ukraynanı getdikcə daha çox uzaqmənzilli silahlarla təmin edir, öz məsləhətçilərini göndərir, əməliyyatların planlaşdırılmasında iştirak edir və kəşfiyyat məlumatları təqdim edir. Bütün bunlar Rusiya ilə NATO arasında birbaşa hərbi toqquşma riskini artırır".

***P.ƏMİRCANOV***
***XQ***

*Qardaşlaşmış şəhərlər*

# Odessadan görünən Gəncə

**"Gəncə-1410,3 kilometr"... Bu istiqamətverici lövhə bilirsiniz harada quraşdırılıb? Odessada, düz şəhərin mərkəzində, meriyanın qarşısında. Başqa sözlə, həmin meriyanın qarşısından Gəncə meriyasına (şəhər icra hakimiyyəti) olan məsafə məhz bu qədərdir.**

...Bu yaxınlarda Azərbaycanın Ukraynadakı səfirliyinin dəstəyi ilə Gəncə şəhərinin adının Odessanın mərkəzində yerləşən dünya şəhərlərinin məsafə nişanı göstərilən məkanına əlavə edilməsi təsadüfi deyil.

Odessa və Gəncə qardaşlaşmış şəhərlərdir, onların arasında ikitərəfli əməkdaşlıq var və 2018-ci ilin dekabrın 17-də Ukrayna Prezidenti V.Zelenskinin ölkəmizə səfəri zamanı bununla bağlı "Niyyətlər haqqında protokol" imzalanıb. Təbii ki, protokola uyğun olaraq tədbirlər planı hazırlanıb, digər işləri həyata keçirmək də nəzərdə tutulub. Bu müddətdə Ukraynanın hökumət nümayəndələri Gəncəyə səfər edərək Nizami yurdu ilə tanış olub, şəhər icra hakimiyyətində görüşlər keçiriblər, sənaye müəssisələrində olublar. Onlar Azərbaycan Dövlət Aqrar Universitetinə də gediblər və burada təhsil müəssisəsi ilə Odessa Milli Aqrar Universiteti arasında memorandum imzalanıb. Hətta 2021-ci ildə Odessa ilə birbaşa hava reysləri də açılıb. Lakin məlum müharibənin fəsadları yaranmış bu dostluğa, qardaşlığa da, şəhərlərarası əlaqələrə də heç şübhəsiz öz təsirini göstərib.



Bütün bunlara baxmayaraq, Ukraynada, o cümlədən Odessada fəaliyyət göstərən Azərbaycan diasporu təşəbbüs qaldıraraq meriya binasının qarşısındakı göstərici lövhələrin birinə Gəncə adının da əlavə edilməsinə nail olub. Azərbaycanın Ukraynadakı səfirliyinin köməyi və dəstəyi ilə həyata keçirilən bu iş ilk baxışda xırda görünsə də, ilk dəfədir Gəncənin rəsmi adı Odessanın mərkəzində dünyanın bir sıra böyük şəhərlərinin adları arasındadır.




Hər il fevral ayında Odessanın mərkəzi küçələrində "Xocalıya ədalət!" şüarının, Xocalı soyqırımının rəmzi olan "Ana harayı" abidəsinin təsvirinin əks olunduğu bilbordlar yerləşdirilir. Gəncənin ermənilər tərəfindən raket hücumuna məruz qalmasını əks etdirən şüarlar da vaxtaşırı şəhər sakinlərinin diqqətini cəlb edib.

Bəs Gəncə ilə Odessanı ümumi birləşdirən hansı cəhətlərdir, oxşarlıqlar nədir?

Hələ iyirmi il qabaq Odessada olarkən küçələrin, demək olar ki, hamısında sırayla əkilmiş xan çinarları diqqətimi daha çox cəlb eləmişdi. İnanırsınız, bəlkə də Gəncədən daha çox burada çinar var, uca, qollu-budaqlı, yaşı 200–300 ildən çox olan çinar!

Türk adları addımbaşı qarşına çıxır, "Şah sarayı", məscidlər göz oxşayır. Gəncəni xatırladır. O da yadımdadır ki, qədim bir binada yerləşən kitabxananın giriş qapısında tikilinin tarixini göstərən lövhədə türk adı yazılmışdı və bu barədə içəri keçərkən yaşı, az qala, 80-ni haqlayan qadına "elə bilirəm, Azərbaycandayam, Gəncədəyəm" deyəndə gülümsəmişdi, az qala, mənə bir saata yaxın sanki mühazirə oxumuşdu, konkret faktlar sadalamışdı, Odessanın tarixini danışmışdı.



Yadımda qalmışdı ki, ruslar 1789-cu ilin sentyabrında gərgin savaşdan sonra Hacıbəy limanını tutublar və iki il sonra şəhər birdəfəlik Rusiyanın hakimiyyəti altına keçib. 6 yanvar 1795-ci ildə isə İkinci Yekaterina Haçıbəy şəhərini Odessa adlandırıb. Yeri gəlmişkən qeyd edim ki, bu işğaldan cəmi 8 il sonra oxşar hadisə Gəncənin də başına gəlib.1786-cı ildən Gəncə şəhərini idarə edən Cavad xan Ziyadoğlu 1804-cü il yanvar ayının 3-dən 4-nə keçən gecə uzun müddət general Pavel Sisianovun başçılığı altında şəhəri mühasirədə saxlayan işğalçı rus qoşunları ilə qanlı döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Gəncənin adı isə dəyişdirilərək Yelezavetpol adlandırılmışdır.




Bir məsələni də qeyd edək ki, indinin özündə də bir çox tarixçilər və tədqiqatçılar Odessanın türk şəhəri olduğunu iddia edir və konkret tarixi faktlar göstərirlər. Yəni 500–600 il əvvəl indiki Odessanın yerində Kacıbəy adlı tatar qəsəbəsi olub. XIV əsrdə litvalılar bu yeri işğal edib və düşməndən qorunmaq üçün onun yanında Hacıbəy adlı bir qala da tikiblər. İki əsr sonra tatarlar qəsəbəni də, qalanı da geri qaytarıblar. 1764-cü ildə türklər limanı qorumaqdan ötrü "Yeni dünya" adı verdikləri yeni bir qala tikiblər. Belə deyirlər ki, burada 300 nəfərlik hərbi qüvvəsi olan türk paşası otururmuş. Bu barədə Odessada nəşr olunan "Odessanın keçmişi və indisi" kitabında ətraflı məlumat var...

Bu oktyabr günlərində də Gəncənin və Odessanın oxşar taleləri diqqəti cəlb edir. Dörd il qabaq Ermənistan ordusu qədim tarixə malik Gəncəni 5 dəfə raket atəşinə tutdu. Nəticədə, 26 müki şəxs – uşaq, qadın, qoca həlak oldu, 200 nəfərə yaxın adam yaralandı, evsiz-eşiksiz qaldı, binalar, sosial obyektlər dağıdıldı, tarixi tikililər yerlə-yeksan oldu. Mənfur qonşuların vəhşi hərəkətlərinin Azərbaycanda, Gəncədə və dünyanın ədalətli ölkələrində pisləndiyi bu oktyabr günlərində Odessaya da raketlər düşür, füsunkar və qədim şəhər dağıdılır, günahsız adamlar həlak olur.

Bəli, Odessanın mərkəzindən Gəncəyə bir yol göstərilir, nişan verilir. Bu yol dostluq, qardaşlıq, həmrəylik yoludur. Bu yol ədalətin zəfər çalacağı yoldur. İnanırıq ki, bu yol göstəricisi elə adi lövhə kimi qalmayacaq. Odessanın mərkəzindən Gəncənin mərkəzinə işlək bir yola çevriləcək və bu yol uzaqda deyil, o, görünür...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Gəncə**

*Həkim məsləhəti*

# Uşaqları mövsümi yoluxmalardan qoruyaq!

**Ötən ayın son günlərindən uşaqlar arasında yayılan qəribə bir xəstəlik artıq valideynlərin narahatlığına səbəb olub. Balacalarda yüksək hərarət, öskürək, qusma, ishal kimi hallar günlərlə davam edir. Bəziləri iddia edir ki, bu, koronavirusun yeni ştammıdır. Yeni hansısa virusun yayıldığını ehtimal edənlər də var.**



Yayılan xəbərlərdə bildirilir ki, xəstəlik uşaqlarda bəzən boğulma, xırıltılı səslə müşahidə olunur. Hərarətsalıcılar və digər preparatlar yüksək temperaturun enməsinə, ümumiyyətlə, uşağın sağalmasına kömək etmir. Son həftələrdə poliklinika və xəstəxanalara məhz bu əlamətlərlə müraciət edənlərin də sayı artıb.

**Bütün bunlara aydınlıq gətirmək üçün "Memorial Klinika"nın pediatrı Vaqif Qarayevdən "XQ" üçün müsahibə aldıq. Həkim hazırda uşaqlar arasında yayılan müxtəlif gedişli xəstəliklə bağlı ətraflı məlumat verdi, valideynlərə tövsiyəsini açıqladı:**

– Əslində, burada qeyri-adi bir xəstəlik yoxdur. Payız fəslində həmişə olduğu kimi, havanın dəyişkənliyi ilə bağlı bəzi viruslar yenə baş qaldırıb. Ən çox respirator viruslar, yəni tənəffüs yolu sistemini zədələyən infeksiyalar özünü göstərir. Amma bu il həm xalq arasında soyuqdəymə dediyimiz xəstəlik, bir də qeyd etdiyiniz qusma, ishalla müşahidə olunan xəstəliklə bağlı müraciətlər var. İkincini yaradan səbəb uşaqlarda koksaki virusunun olduğuna işarədir. Hazırda hər ikisinə aid əlamətlər var. Birinci halda öskürək, boğaz ağrısı, yüksək qızdırma, burun tıxanıqlığı, digər virusun yaratdığı xəstəlikdə isə qızdırma, ishal, qusma müşahidə edilir.

**– Xəbər yayılıb ki, bu yoluxma koronavirusun "Omicron" ştammının mutasiyalarından biri ilə bağlıdır.**

– Belə deyil, bunlar mövsümlə bağlı hər il müşahidə etdiyimiz xəstəliklərdir. Ötən illərdə də olub, bu il də var, gələcək illərdə də müşahidə ediləcək. Bəzilərinin dediyi kimi, uşaqlar arasında yayılan bu xəstəliklər koronavirusla, onun mutasiya olunmuş ştammları ilə bağlı deyil. Olsa belə, daha yüngül formada keçir və uşaqlar arasında da problem yaratmır.

**– Xəstəlik həm məktəb yaşlı, həm də daha kiçik uşaqlar arasında yayılıb.**

– Məktəblərin açılması, havaların dəyişkən olması, uzun müddət bir-birindən ayrı düşən şagirdlərin yaxın təması xəstəliyin yayılmasını sürətləndirir. Onlar xəstəliyi evə bayırdan gətirirlər. Evdə bağça yaşlı uşaq varsa, onun xəstələnməsi labüd olur. 3 yaşa qədər olan uşaqların xəstələnməsinə ciddi diqqət edilməlidir. Xüsusən qusma, ishalla gedən xəstəlik kiçik yaşlı uşaqlar üçün qorxuludur. Çünki onlar qusma və ishalla çoxlu maye itirirlər. Vaxtında buna müdaxilə olunmasa, xəstənin vəziyyəti çox ağırlaşa bilər və hətta xoşagəlməz hallar baş verər.

1 yaşa qədər uşaqlarda bu əlamətlərin olması daha təhlükəlidir. Valideyn mütləq həkimə müraciət etməlidir. Çünki itirilən mayenin yeri kompensasiya olunmalıdır. Uşaq su içə bilmirsə, uşağa lazım olan preparatlar infuziya (el arasında deyildiyi kimi sistem) yolu ilə yeridilir. Su içə bilən uşaq gün ərzində davamlı maye qəbul etməlidir. Amma yenə də burada həkim məsləhəti və müdaxiləsi önəmlidir. Çünki ishala qarşı müəyyən preparatların təyin olunması vacibdir.

Sadaladığınız o biri əlamətlərlə özünü göstərən xəstəlik barədə deyə bilərik ki, bu, qrip deyil. Qrip tamamilə başqa virusların törətdiyi xəstəlikdir. Amma biz adi qızdırmaya da, burun tıxanıqlığına da qrip deyirik. Qrip ciddi xəstəlikdir. Vaxtilə 10 milyonlarla insanın həyatına son qoyan "ispanka" adlanan qrip olub. Hələ ki, həmin qrip müşahidə olunmur, arzulayaq ki, heç yenidən üzləşməyək. Amma, yeri gəlmişkən, onu da mütləq qeyd etməliyik ki, hazırda ölkəmizdə qripə qarşı peyvəndlər var və dövlətin tibb müəssisələrində vaksinasiya aparılır.

**– Valideynlərə tövsiyəniz...**

– Ata-analara tövsiyə edərdim ki, uşaqları peyvənd etdirməkdən çəkinməsinlər. Öskürək, boğaz ağrısı, burun tıxanıqlığı və hərarətlə gedən xəstəliklərdə temperatura mütləq nəzarət etsinlər. Temperatır 38 dərəcədən yuxarı olarsa, mütləq hərarətsalıcılardan istifadə olunmalıdır.

Hazırda burun üçün kifayət qədər damcı dərmanları var. Dəniz duzu ilə zəngin akvamaris, akvalor kimi preparatlardan istifadə etməklə burun tıxanıqlığını aradan qaldırmaq lazımdır. Uşaqlar gün ərzində çoxlu maye qəbul etməlidirlər. Qidalarında tərəvəz və vitaminlərdən bol-bol istifadə etsinlər. Təkar edirəm ki, 3 yaşa qədər uşaqlarda sadaladığımız əlamətlərdən hər hansı biri müşahidə olunarsa, mütləq həkimə müraciət edilməlidir.

***Hazırladı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

# Fizika üzrə Nobel mükafatçıları




**Con Hopfild və Ceffri Hinton fizika üzrə 2024-cü ilin Nobel mükafatı laureatları olublar. Bu barədə məlumatı Nobel Komitəsinin mətbuat xidməti verib.**

Məlumata görə, mükafat onlara "süni neyron şəbəkələrindən istifadə etməklə fundamental kəşflər və ixtiralara görə" verilib.

***XQ***

# "Cəza" meydanı səhnədir

**Oktyabrın 11-də Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında (GTT) yazıçı-dramaturq Tamara Vəliyevanın eyniadlı əsəri əsasında hazırlanan "Cəza" monotamaşası nümayiş olunacaq.**

Teatrdan mətbuata bildirilib ki, birhissəli tamaşada əsas rolu Əməkdar artist Kəmalə Hüseynova ifa edəcək.

Psixoloji oyun dramının quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadədir.

***XQ***




"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan beton məhlulunun satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il oktyabrın 14-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 221 (30625) 9 oktyabr 2024-cü il, çərşənbə

## İdman xəbərləri

# Azərbaycanın güclü şahmatçıları kimlərdir?

**Respublika Şahmat Mərkəzində təşkil edilən şahmatın rapid və blits növləri üzrə kişilər və qadınlar arasında Azərbaycan çempionatının mükafatçıları məlum olub.**



Kişilərin yarışında rapid və blits turnirinin yekunlarına əsasən, 14 xal toplayan Eltac Səfərli çempion olub. Vüqar Rəsulov 2-ci, Məhəmməd Muradlı isə 3-cü yerləri tutublar.

Qadın şahmatçıların yarışında isə 12,5 xal toplayan Gülnar Məmmədova qızıl medala yiyələnib. Eyni xala malik Zeynəb Məmmədyarova əlavə göstəricilərə görə 2-ci olub. Milli komanda üzvü Xanım Balacayeva 12 xalla bürünc medal qazanıb.

Qeyd edək ki, Azərbaycan çempionatının mükafat fondu 8 min manat təşkil edib. Qalib və mükafatçılar Dünya çempionatında iştirak hüququ əldə ediblər.

# Qol güləşi üzrə Dünya çempionatında 18 medal

**Azərbaycan idmançıları Yunanıstanın Loutraki şəhərində keçirilən qol güləşi üzrə dünya çempionatında 18 medal qazanıblar. Bunlardan 8-i qızıl, 8-i gümüş, 2-si bürünc mükafatdır.**



Azər Məhərrəmov (master, +105 kq), Rəşad Quluzadə (U-21, 78 kq), İsmayıl Mustafayev (U-21, 70 kq), Rəşad Quluzadə (senior, 78 kq, sağ qol), Toğrul Şahlarlı (senior, 78 kq, sağ qol), İsmayıl Mustafayev (senior, 70 kq, sağ qol), Nicat Müzəffərov (U-18, 63 kq, sağ qol), İsmayıl Mustafayev (senior, 70 kq, sağ qol) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Nicat Müzəffərov (63 kq, U-18), Elvin Salehli (senior, 57 kq, sol qol), Əli Məmmədov (senior, 63 kq, sağ qol), İsmayıl Mustafayev (senior, 70 kq, sağ qol), Ramazan Rüstəmov (senior, 86 kq, sağ qol), Əli Məmmədov (senior, 63 kq, sağ qol), Təbriz Səfərov (senior, 78 kq, sağ qol), Azər Məhərrəmov (master, +105 kq, sağ qol) gümüş, Təbriz Səfərov (senior, 86 kq, sağ qol) və Rəşad Quluzadə (senior, 78 kq, U-21, sol qol) isə bürünc medala sahib çıxıblar.

# Oxatanlarımız bürünc medal qazanıblar



**Azərbaycanın kamandan oxatanları Tacikistanda keçirilən Prezident Kubokunda fərqləniblər.**

Beynəlxalq turnirdə Fatimə Hüseynli və Məhəmmədəli Əliyev komanda yarışında bürünc medala yiyələniblər. Təmsilçilərimiz Rusiya, İran, Sudan, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan da daxil olmaqla, ümumilikdə, 15 ölkə idmançıları ilə mübarizə aparıblar.

*Leyla QURBANOVA*
*XQ*

**“Bakavtoservis” ASC səhmdarlarının** 25 oktyabr 2024-cü il saat 12.00-da keçirilməsi nəzərdə tutulan növbədənkənar ümumi yığıncağı ləğv olunur. Yığıncağın gələcəkdə keçiriləcəyi barədə əlavə məlumat veriləcəkdir.

## Futbol tariximizdən

# “Neftçi” bax belə oynayırdı…

## *Ondakı flaqman hara, indiki komanda hara*

**Aralarında yerlə göy qədər fərq var. Əgər XX əsrdəki “Neftçi”, bəlkə də, Avropa çempionatları ilə müqayisə edə biləcəyimiz SSRİ çempionatlarında Moskvanın “Spartak”, “Dinamo”, “Torpedo”, OMİK, “Lokomotiv”, Kiyev, Tbilisi və Minskin “Dinamo”, Leninqradın “Zenit”, Alma-Atanın “Kayrat”, Daşkəndin “Paxtakor” komandaları və digər kollektivlərlə kəskin mübarizədə kifayət qədər layiqli rəqib idisə və hətta bir dəfə – 1966-cı ildə bürünc mükafatçı olmuşdusa, indiki komanda bu gün Azərbaycan Premyer Liqasında birinci dövrədən və ya 9 turdan sonra bircə qələbəsi belə olmayan yeganə kollektivdir və cəmi 5 xalla turnir cədvəlinin sonuncudan əvvəlki – 9-cu pilləsindədir.**



1986-cı il iyulun 9-da 49-cu çempionatda bakılıların 2:1 hesablı qələbəsi ilə başa çatan “Zenit” (Leninqrad) – “Neftçi” görüşünün 84-cü dəqiqəsində “fərqlənmiş”, Maşallahın vurduğu qələbə topunu lentə almış və həmin foto bir gün sonra respublika qəzetlərində öz əksini tapmışdı. Bu oyunda birinci qolumuzun müəllifi isə Cavadov olmuşdu.

Komandanın nə vaxt dirçəlib özünə gələcəyi, nəhayət, nə vaxt “Neftçi” adına layiq oyun oynayacağı isə heç kimə məlum deyil. Belə bir acınacaqlı vəziyyətdə azacıq da olsa, təskinlik tapmaq üçün o uzaq illərə qayıdaq. Baxaq, görək, 40–50 il əvvəl “Neftçi” necə oynayırdı.

Bunun üçünsə növbəti dəfə “Neftçi”-70. Unudulmayan keçmiş. 1937–2007” kitabına (müəlliflər – Səbuhi Səfiyarlı, Elçin Rüstəmov) müraciət edək. Kitabda gördüyüm çoxsaylı fotolardan üçünü “Xalq qəzeti”nin oxucularına da göstərməyi qərara aldım. Ayrı-ayrı futbol adamlarının kitabın müəlliflərinə töhfə etdikləri fotolar onların şəxsi arxivlərindən götürülmüşdür. Müəllifləri göstərilməyib. Şəkillər, yəqin ki, Azərbaycan idman fotojurnalistikasında dərin iz buraxmış Faiq Rəcəbli, Leonid Bedoşvili, Yaşar Xəlilov, Əhməd Abdullayev, Mirheydər Həşimov, Gennadi Malyov və ya onun atası Yevgeni Malyovun, ya da bir başqasının peşəkar yaradıcılığının dəyərli məhsuludur. İndi bunu dəqiqləşdirməyin elə bir mənası yoxdur. Sadəcə, fürsət düşmüşkən, o uzaq illərin foto ustalarının adlarını çəkməklə nəyimiz əskik çıxacaq ki? Fotomüxbirlər də oyun başlayandan onun son saniyələrinədək meydanda futbolçularla bərabər qaçmış, rəqib qapısı ağzında gərgin vəziyyət yaxalamaq, qol sevinci yaşamaq, ertəsi gün isə səhər tezdən fəxrlə redaksiyaları yüksək keyfiyyətli fotolarla təmin etmək üçün qan-tər içində əllərindən gələni etmişlər. Onlara hörmət və ehtiramımız əbədidir!

Diqqət yetirin, kitabda “İ.Cavadov Kiyev dinamoçularını məyus edir” sözləri ilə müşayiət olunmuş fotoda “Neftçi”nin sol kənar hücumçusu və kapitanı məşhur rəqibin birdən-birə beş (!) oyunçusunun əhatəsində topu qapıdan keçirməyi bacarmışdır. Cavadovun arxasındakı kiyevlilərin kapitanı Anatoli Demyanenkonun, daha üç müdafiəçinin və qapıçı Viktor Çanovun (qardaşı Vyaçeslavın bir ara “Neftçi”nin qapısını qoruduğunu da yada salmaq yerinə düşər) bakılıların hücum xəttinin liderinə mane olmaq cəhdləri baş tutmamışdır. Tamaşaçılarla ağzınadək dolu tribunalar qarşısında ustalıqla vurulmuş qol, ustalıqla da lentə alınmış fotodur!

Burada statistika ilə maraqlansaq, məlum olacaq ki, İ.Cavadov 1977–1988-ci illərdə “Neftçi”nin heyətində SSRİ çempionatlarının güclülər dəstəsində 277 oyunda meydana çıxmış və 53 top vurmuşdur.

Həmin qollardan ən birincisini yaxşı xatırlayıram. Yəqin ona görə ki, İsgəndər özünün ilk qol sevincini futbolumuzun əfsanəsi Anatoli Banişevskinin SSRİ çempionatlarında və ölkə kuboku yarışlarında vurduğu 99-cu və 100-cü qollarla yadda qalan oyunda yaşamışdır.

Bu görüş 1978-ci il oktyabrın 15-də 41-ci ölkə çempionatı çərçivəsində Bakıda keçirilmişdir. Qonağımız Dnepropetrovskın “Dnepr” komandası idi. Almaatalı hakim Muxail Çerdantsev matçda meydan sahiblərinin xeyrinə 4:1 hesabı qeydə aldı. İlk topu 9-cu dəqiqədə məhz İsgəndər vurdu. Banişevski isə məqsədinə fasilədən sonra iki dəqiq zərbə ilə çatdı (biri penalti zərbəsi idi). Daha bir qol Səmədağa Şıxlarovun hesabına yazıldı.

Azarkeşlər Maşallah Əhmədovu nəyə görə sevirdilər? Qara qaşlarına, qara gözlərinə görəmi?! Yox, onlar Maşallahı sürətli hücumlarına, cəsarətli oyununa, müdafiəçilərlə əzmkar mübarizəsinə, qapıya mükəmməl zərbələr endirmək bacarığına görə alqışlayırdılar.

İ.Cavadov kimi, M.Əhmədov da gəncliyinin gur çağını (1978–1988) “Neftçi”də keçirmiş, bu komandanın heyətində Sovet İttifaqı çempionatlarının güclülər dəstəsində 258 oyunun iştirakçısı və 64 qolun müəllifi olmuşdur.

M.Əhmədov – İ.Cavadov tandemi komandanın əsas zərbə qüvvəsi idi. Onlar, eləcə də, “Neftçi”nin tarixində daha bir ulduz futbolçu, olimpiya çempionu İqor Ponomaryov qüdrətli bir üçlük təşkil edirdilər və sovet futbolunda hamı bu üçlük haqqında həvəslə danışırdı. Həqiqətən, hər bir işdə gözəllik həmişə hamıda rəğbət hissi oyadır. “Neftçi”nin Cavadov – Ponomaryov – Əhmədov üçlüyü də məhz gözəl oyununa görə sevilirdi.

Təxminən, bir il əvvəl dərc etdirdiyim “Doktor Xetaqurov” sərlövhəli yazıda qeyd etdiyim kimi, Əhmədovun SSRİ çempionatlarında vurduğu qollardan birini lentə alan foto ustalarından biri də “Neftçi”nin məşhur həkimi Boris Xetaqurov olmuşdur. Doktor





1960-cı illərin ortaları və ya sonudur. Respublika stadionunda ölkə çempionatı görüşünün birinci hissəsi yenicə başa çatıb. Fasilədə “Neftçi” paltardəyişmə otağına istirahətə getməyib, baş məşqçi Əhməd Ələsgərov futbolçulara elə meydançanın kənarında ikinci 45 dəqiqədə necə oynamaq barədə tapşırıqlarını verir.

Anatoli Banişevski, Adil Babayev, Aleksandr Trofimov, Sergey Kramarenko, Mübariz Zeynalov, Nikolay Boqdanov və onların oyundaşları da məşqçinin göstərişlərini diqqətlə dinləyirlər. Həyatlarının ən yaxşı illərini “Neftçi”yə həsr etmiş Azərbaycan futbolunun bu yetirmələri doğma komanda üçün yaşıl meydanlarda can qoymuşlar. Qədirbilən futbol ictimaiyyətimiz də onların hər birini həmişə minnətdarlıqla xatırlayır.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Abşeronda yağmursuz, bölgələrdə yağıntı və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 9-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlədə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 15-19°, gündüz 22-26° isti olacaq.**



Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər qərb rayonlarından başlayaraq tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 23-28°, dağlarda gecə 5-10°, gündüz 11-16° isti olacaq.

*Q. QASIMOV*
*XQ*



# Ukraynalı uşaqlar Qəbələdə

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək reabilitasiya tədbirlərinə cəlb edilən bir qrup ukraynalı uşaq Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda olub.**

Qoruqdan bildirilib ki, Ukraynadakı müharibədən əziyyət çəkən uşaqlar əvvəlcə Qəbələ Arxeoloji Mərkəzində sərgilənən arxeoloji materiallarla, Qəbələnin tarixi, etnoqrafiyası və folkloruna aid kitablar toplusu ilə tanış olublar.

Arxeoloji Mərkəzin akt zalında keçirilən görüşdə qoruğun direktoru Zahir Kərimov kiçik yaşlı qonaqlara Tarix-Bədii Qoruğun və Mərkəzin fəaliyyəti barədə məlumat verib.

Sonra ukraynalı uşaqlar “Qafqaz Albaniyasının paytaxtı – Qəbələ” filmini izləyiblər. Qonaqlar üçün çay süfrəsi təşkil olunub, xatirə hədiyyəsi təqdim edilib.

*XQ*

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova universitetin ədəbiyyat və dillər kafedrasının professoru Fəridə Səfiyevaya həyat yoldaşı

**SÖHRAB SƏFİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2316
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00